RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 4 (8597) ŞƏNBƏ, 9 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan 2020-ci ilin sınaqlarından qələbə ilə çıxdı

## Prezident İlham ƏLİYEV: "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır"

**Hər ilin əvvəlində olduğu kimi, Prezident İlham Əliyev bu dəfə də ötən ilin yekunlarına həsr olunmuş müşavirə keçirdi, amma həm məzmun, həm də formaca əvvəlkindən fərqli. Dünyada hökm sürən koronavirus pandemiyası ilə əlaqədar builki müşavirə videoformat şəklində aparıldı.**

Lakin fərq təkcə bu deyildi. Müşavirənin məzmununun da özəlliyi vardı və bu ondan ibarət idi ki, əslində, ölkəmizin, xalqımızın həyatının tək bir ilinə deyil, son üç onilliyinə yekun vururdu. Dövlət başçısı bunu müşavirənin başlanğıcında belə vurğuladı: "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır."

Azərbaycan 2020-ci ilin sınaqlarından Zəfərlə çıxdı. Mənfur düşmənin ayaqları altında illərdir inləyən torpaqlarımızda, dağıdılıb talan edilən yaşayış məntəqələrimizdə Azərbaycan bayrağı yüksəldi.

Koronavirus isə bütün dünya üçün böyük sınaq oldu. Azərbaycan bu sınaqdan da şərəflə çıxmaq üçün mübarizə aparır. Vəziyyət daim dövlətin nəzarətindədir. Ölkədə tez bir zamanda yeni xəstəxanalar tikildi, infeksiyadan qoruyucu vasitələr istehsal edən müəssisələr işə salındı, müvafiq laboratoriyalar alındı. Böyük həkimlər dəstəsi səfərbər olundu və koronavirus xəstələrinə qulluq etdiklərinə görə onların maaşları artırıldı. Çox böyük sosial paket təqdim edildi. Bir neçə milyard manat dəyərində olan bu sosial paket koronavirusdan əziyyət çəkən insanlara, qeyri-formal çalışan və işsiz vətəndaşlara təqdim edildi.

Əlbəttə, pandemiyanın iqtisadiyyata zərbəsi danılmazdır. Bununla belə, Azərbaycan digər ölkələrə nisbətən vəziyyətdən az itkilərlə çıxıb. Ölkə iqtisadiyyatı, ümumilikdə, təqribən 4 faizdən bir qədər çox azalsa da, qeyri-neft sənayesi 11 faizdən çox artıb. Kənd təsərrüfatında 2 faiz artım olub. Sosial sahədə insanların rifahına xidmət edən addımlar atılıb. İndiki çətin dövrdə də dövlətimiz bu məsələni unutmayıb. Orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artıb. Neft Fondunun vəsaiti azalmayıb, əksinə, çoxalıb. Bunlar dövlətin həyata keçirdiyi məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin düzgün aparılması nəticəsində mümkün olub. Dövlət başçısı bu barədə deyib: "Baxmayaraq ki, biz koronavirusla mübarizəyə milyardlarla manat yönəltmişik, müharibə aparmışıq və digər xərclər olubdur, müavinətlər, sosial paket. Bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılıb. Yəni bütün bunlar böyük maliyyə yüküdür. Amma dövlətin dayanıqlılığı, ölkəmizin uğurlu siyasəti nəticəsində biz buna nail ola bilmişik."

Qələbə ilində daha bir uğurumuz ilin son günündə aldığımız şad xəbər oldu. "Cənub qaz dəhlizi" tam istismara verildi. Dəhlizin son seqmenti olan TAP ( Trans-Adriatik Qaz Boru Kəməri) işə düşdü. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq birbaşa Avropaya nəql edildi. Bu, bizim daha bir qələbəmizdir. Çünki "Cənub qaz dəhlizi" kimi qlobal bir layihənin təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır.

Beynəlxalq qurumlar öz reytinq hesabatlarında ölkəmizə önəmli yer verirlər. Azərbaycan yenə də dünyanın 10 ən islahatçı ölkəsi sırasındadır.

İnfrastruktur layihələrimiz demək olar ki, başa çatmaq üzrədir. Azad edilmiş torpaqlardan savayı, indi ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizi ötür. Elektrik enerjisi ilə heç bir problem yoxdur. Davos İqtisadi Forumunun hesabatına görə, bu sahədə ikinci yerdəyik. Avtomobil və dəmir yolları xətləri və digər infrastruktur layihələri, o cümlədən suvarma ilə bağlı layihələr plan üzrə irəliləyir.

İndi Prezident əsas diqqəti işğaldan azad edilmiş torpaqlara yönəldir: "Biz düzgün yoldayıq. Bütün çətinliklərə baxmayaraq, işğala baxmayaraq, 1 milyon qaçqının olmasına baxmayaraq, biz bu nailiyyətləri əldə etmişik. İndi torpaqlar azad edilib, indi böyük qayıdış başlanmalıdır, böyük inkişaf prosesləri başlanmalıdır. Ona görə, əlbəttə, biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq."

*Ardı 4-cü səh.*

◆ **İlin uğurlu yekunları**

## Zəfər salnaməsi

### Azərbaycan tarixinin 44 şərəf günü

Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında düşmənin kapitulyasiyası ilə başa çatdı.

### Cəbrayıl azad edilən ilk şəhər oldu

Oktyabrın 4-də növbəti qələbə xəbəri gəldi. "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" - deyə İlham Əliyev "Twitter" səhifəsində yazdı. Həmin gün xalqa müraciət edən İlham Əliyev Cəbrayıl şəhərinin, həmçinin rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal və Cəfərabad kəndlərinin azad olunduğunu bildirdi. *"Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu. Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"* - deyə İlham Əliyev bəyan etdi.

***(Əvvəli qəzetin 8 yanvar nömrəsində)***

Oktyabrın 4-də Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım etdi. Paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə Ali Baş Komandan birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti təbrik etdi. Generallar İlham Əliyevə təşəkkürlərini bildirərək əmin etdilər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

### Mehriban ƏLİYEVA: "Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq"

Azərbaycan Ordusunun hücumlarının qarşısının alınmaz olduğunu artıq Ermənistan və dünya erməniliyi hiss etməyə başlamışdı. Təsadüfi deyil ki, məhz həmin ərəfələrdə düşmənin müvafiq orqanları dövriyyəyə feyk informasiyalar ötürməyə başladılar. Hətta bir sıra ölkələrdə də KİV tərəfindən yalan informasiyalar tirajlanmağa başlanmışdı.

*Ardı 3-cü səh.*

## Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti qürur mənbəyimizdir

"Biz öz mədəniyyətimizi, mədəni irsimizi qorumalıyıq. Əsrlərboyu xalqımız öz mədəniyyətini qoruyub və bu imkan verib ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi qoruya bilək. Uzun illər ərzində Azərbaycan müstəqillikdən məhrum idi, xalqımız başqa dövlətlərin tərkibində yaşayırdı. Buna baxmayaraq, xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıbdır".

Yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edən Prezident İlham Əliyev belə deyib.

Dövlət başçısı vurğulayıb ki, əsrlərboyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan Ana dilimizdir, Ana dilimizin - Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir. Zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri olduğunu qeyd edən Prezident İlham Əliyev bir sıra vacib məsələləri nəzərə çatdırıb. Qeyd olunub ki, son vaxtlar Azərbaycan dilinə daxil edilən bəzi kəlmələr dilimizin saflığını pozur. Dövlət başçısı bildirib ki, Mədəniyyət Nazirliyi digər aidiyyəti qurumlarla - Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan dilinin qorunması üçün çox ciddi işlər aparmalıdır.

Azərbaycanın zəngin ədəbiyyatı var. Müxtəlif dönəmlərdə yaşamış böyük şairlərimiz xalqı dünyada tanıdıblar. Bu ilimiz onlardan birinin - dünyaşöhrətli şair Nizami Gəncəvinin adı ilə bağlı olacaq.

Azərbaycanın ədəbiyyatı kimi, musiqi sənəti də zəngindir. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilən musiqi sənətimiz bizi dünyada tanıdır. Azərbaycan xalqı, Azərbaycan dövləti milli sərvətimiz olan muğama, musiqi sənətimizə böyük dəyər verir. Ölkəmizdə müntəzəm olaraq muğam müsabiqələrinin, beynəlxalq muğam festivallarının təşkili musiqi mədəniyyətimizin təbliğinə və inkişafına böyük töhfələr verir.

*Ardı 5-ci səh.*

## 10 noyabr Bəyanatı erməni xalqının xilası yoludur

**Bu gün müharibə ritorikası ilə kükrəyən Yerevan mitinqləri, bir-birini vətənə xəyanətdə, Qarabağı "satmaqda" ittiham edən və yeni revanşizmlə od püskürən erməni siyasi elitasının "qartal"ları erməni hərb maşını tör-töküntülərinin qarğa bazarına bənzəyir.**

İndi işğalçı rejimin iqtidarlı-müxalifətli bütün siyasi qüvvələri erməni faşist ordusunun məğlubiyyətini araşdırır, taktiki və strateji gedişlərini xəlbirləyir, ağızları köpüklənə-köpüklənə "qələbə" gətirə biləcək utopik reallıqlardan danışırlar. Sanki Ermənistan cəmiyyəti yeni müharibəyə göz qırpımında atılmağa hazırdır. Bu zahiri görüntünü faşist ordusunun üzü kimi qəbul etsək, onun astarını üzə çıxarmaq o qədər şərəfli iş olmasa da, mümkündür.

Bir sözlə, Yerevan pıqqapıqla qaynamaqdadır. İtə yiyəsini tanımağa imkan verməyən bu mərəkəyə sanki qədim Yunanıstandan Zevsin özü qonaq gəlib! Yəni meydanlarda, KİV-də, siyasi və hərbi diskussiyalarda qabardılan savaş ritorikasını müharibə Allahı elə bil Afina səmalarından İrəvana sovqat göndərib.

Çox uzaq tarixə müraciət etmədən mətləbə yaxınlaşaq və noyabrın 10-da kapitulyasiya aktını imzalayan, suda boğulanın saman çöpündən ikiəlli yapışdığı kimi bu sənədə eləcə sarmaşan Paşinyanı xatırlayaq. Həmin gün baş nazir "Facebook" səhifəsində bildirmişdi ki, kapitulyasiya aktına hərbçilərin təzyiqi altında qol çəkib. Belə ki, ehtiyat hərbi qüvvələrin səfərbərliyə alınması ilə bağlı ciddi problemlər var.

*Ardı 6-cı səh.*



## Azərbaycan pandemiyaya qarşı çevik tədbirlər görür

**Artıq 1 ildir ki, dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Buna baxmayaraq, COVID-19 hələ də Yer üzündə yayılmaqda davam edərək sürətlə yoluxma sayını artırır, hər gün yüz minlərlə insan bu təhlükəli virusa yoluxur.**

Dünyanın ümumi bəlasına qarşı Azərbaycanda hərtərəfli mübarizə davam etdirilir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq dövlətimiz pandemiyanın qarşısının alınması istiqamətində ilk zamandan etibarən qətiyyətli və çevik tədbirlərə start verib.

COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən, virusun hələ sərhədlərimizdən xeyli uzaqda olduğu zamandan dövlət başçısının tapşırığına əsasən, profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılıb.

Təhlükədən maksimum qorunmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri nəzərə alınaraq, sərhədlərimiz qapanıb, bütün təhsil müəssisələrimiz bağlanıb, kütləvi tədbirlər, idman yarışları təxirə salınıb.

*Ardı 6-cı səh.*

## 2021-ci il Ermənistan üçün dərin sosial-iqtisadi problemlərlə başlayıb

**Ermənistanda əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, iqtisadiyyatın tənəzülü, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır. Proqnozlar göstərir ki, müharibədəki məğlubiyyət, əhalinin maddi rifah halının pisləşməsi, daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar cari ildə də davam edəcək. Problemlərin həlli üçün isə Ermənistan hakimiyyətinin konkret proqramı yoxdur.**

İqtisadi tənəzzül, idxal və ixrac əməliyyatlarında yaranan böyük ölçülü mənfi saldo ölkəni iqtisadi uçurumun kənarına gətirib. Ona görə də cari ili Ermənistan dövləti və xalqı təkcə ağır hərbi məğlubiyyətlə yox, həm də dərin iqtisadi böhranla qarşılayıb.

Qeyd edək ki, ötən il Ermənistan iqtisadiyyatında 7,2 faiz azalma olub. Tikinti sektoru 11,2 faiz, ticarət dövriyyəsi 13,5 faiz, xidmətlərin həcmi 13,6 faiz azalıb. O cümlədən ölkənin xarici ticarət dövriyyəsi 12,4 faiz, ixrac 5,2 faiz, idxal 15,9 faiz enib. İqtisadi vəziyyətin pisləşməsi dövlət büdcəsinə vergi gəlirlərinin azalmasına gətirib çıxarıb. Bu o deməkdir ki, dövlət 2021-ci ildə vətəndaşların əməkhaqqını və təqaüdlərini ödəmək üçün əlavə kredit yükünün altına girməli olacaq.

İqtisadiyyatdakı böhran səbəbindən Ermənistanda büdcə balansı da pozulub. Belə ki, ötən il büdcə kəsirləri kapital qoyuluşunu üstələyib. Cari il üçün isə büdcə kəsirinin 342 milyard dram (dövlət büdcəsinin təxminən 18,5 faizi və yaxud təxminən 700 milyon dollar) olması, kapital xərclərinin isə 215 milyard dram (400 milyon dollardan çox) olacağı proqnozlaşdırılır.

*Ardı 6-cı səh.*

## N.A.Qurbanovanın Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2021-ci il*

## N.A.Qurbanovanın Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2021-ci il*

## H.Ə.Həsənovun Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2021-ci il*

## Azərbaycan xarici işlər nazirinin BMT-nin Baş katibinə məktubu qurumun Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Baş katibi Antonio Quterreşə ünvanladığı, Ermənistanın beynəlxalq hüquqa və 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq sabitliyin pozulmasına yönələn fəaliyyəti barədə məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra Azərbaycanın münaqişənin təsirinə məruz qalan bütün ərazilərdə bərpa və reinteqrasiya üzrə genişmiqyaslı işlərə başladığı bir vaxtda Ermənistanın bölgədə sülh, əməkdaşlıq və inkişafın təmin edilməsinə təhdid təşkil edən fəaliyyəti barədə məlumat verilir. Belə ki, Azərbaycanın işğaldan azad olunmuş Xocavənd rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin diversiya-təxribat fəaliyyəti qeyd olunaraq, Azərbaycanın müvafiq qurumları tərəfindən aparılan antiterror əməliyyatı nəticəsində Ermənistan vətəndaşları olan 62 nəfərdən ibarət diversiya qrupunun üzvlərinin saxlanıldığı bildirilir.

Birgə Bəyanatın imzalanmasından bir ay keçdikdən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq tanınmış ərazilərində bu kimi diversiya-təxribat fəaliyyətinin Ermənistanın beynəlxalq hüququn prinsiplərini, eləcə də bəyanatla üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozmasının sübutu olduğu BMT Baş katibinin diqqətinə çatdırılır.

Məktubda Ermənistanın Azərbaycan ərazilərində bu kimi sabitliyin pozulmasına yönələn fəaliyyətdən çəkindirilməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsi əksini tapıb. Həmçinin bölgədə mehriban qonşuluq münasibətlərinin bərpa olunmasını vəd edən birgə Bəyanatın icrasının dəstəklənməsində BMT başda olmaqla, beynəlxalq ictimaiyyətin mühüm rolu vurğulanır.

BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi ilə aşağıdakı keçiddən tanış olmaq olar:

**https://undocs.org/a/75/689.**

# Azərbaycan-Ukrayna İşgüzar Şurası yaradıla bilər

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski ilə görüşüb.**



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olduğu, əməkdaşlığın inkişafına xüsusi önəm verildiyi, iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb.

Nazir Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsi, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı Ukraynanın qəti mövqeyinin, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini deyib.

İki ölkə arasında iqtisadi əlaqələrdən danışan M.Cabbarov bildirib ki, 2019-cu ilin dekabrında Ukrayna Prezidenti Vladimir Zelenskinin Azərbaycana səfəri və ötən ilin yanvarında keçirilmiş Azərbaycan Respublikası ilə Ukrayna arasında İqtisadi Əməkdaşlıq Məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclası zamanı əldə edilmiş razılaşmalar iqtisadi sahədə fəallığı daha da artırıb. İqtisadi əməkdaşlığın inkişafı üçün böyük potensial mövcuddur. Azərbaycanın iqtisadi sahədə əlaqələrə təkan verə biləcək yeni mexanizmlərin yaradılmasının tərəfdarı olduğunu vurğulayan nazir bu məqsədlə Hökumətlərarası Komissiya çərçivəsində iqtisadi əməkdaşlıq üzrə İşçi Qrupunun və Azərbaycan-Ukrayna İşgüzar Şurasının yaradılmasını təklif edib.

Ukraynanın Azərbaycandakı səfiri V.Kanevski iqtisadi-ticarət əlaqələrinin inkişafı barədə fikirlərini bölüşüb, ölkəsinin Azərbaycanla bir sıra istiqamətlərdə, o cümlədən özəlləşdirmə sahəsində tərəfdaşlıqda, işğaldan azad edilmiş ərazilərin bərpası üzrə həyata keçiriləcək layihələrdə Ukrayna şirkətlərinin iştirakında maraqlı olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-Ukrayna iqtisadi əməkdaşlığının genişləndirilməsi imkanlarına dair müzakirələr aparılıb.

# “Şəhidlərimizin bizə əmanət olan ailələrinin qayğılarının həlli dövlətimizin əsas prioritet istiqamətlərindəndir”



*“Vətən müharibəsi rəşadətli ordumuzun qələbəsi ilə başa çatdıqdan sonra dövlətimizin qarşısında bir neçə prioritet istiqamətlər müəyyən edildi. Bunlardan biri işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması sahəsində görüləcək işlərlə bağlıdır. Bu məqsədlə 2021-ci ilin dövlət büdcəsindən lazımi vəsait ayrılıb və tezliklə işğaldan azad edilmiş Vətən torpaqları ölkəmizin ən gözəl guşələrindən birinə çevriləcək. Digər önəmli məsələ isə vaxtilə doğma el-obalarını tərk etməyə məcbur qalmış köçkün və qaçqın vətəndaşlarımızın yenidən öz dədə-baba yurdlarına qayıtmasıdır. Həmin insanlar bu tarixi anı 30 ilə yaxındır həsrətlə gözləyirdilər. İnanırıq ki, dövlətimizin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri, o cümlədən yeni binaların inşası, yolların bərpası, digər infrastrukturun qurulması qısa müddət ərzində yekunlaşacaq. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın apardığı işğalçılıq siyasəti, vandal və barbar əməlləri nəticəsində ərazilərimizdəki tarixi, mədəni abidələr vəhşicəsinə talan edilib və dağıdılıb, yaşayış evləri xarabalığa çevrilib, yollar yararsız hala salınıb, təbiətə ciddi ziyan vurulub”.*

AZƏRTAC xəbər verir ki, bu sözləri KİV-ə açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

Sədr müavini deyib: “Digər əsas prioritet istiqamət isə ərazilərimizin işğaldan azad edilməsində şücaət göstərmiş, şanlı tariximizin ən parlaq səhifələrini yazmış şəhidlərimizin bizə əmanəti olan ailələrinin qayğılarının həll edilməsidir. 44 günlük müharibə zamanı hər bir Azərbaycan hərbçisinin öz məsuliyyətini dərk edərək üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi təqdirəlayiqdir. Bu gün şəhid ailələrinin qayğılarının aradan qaldırılması, onların problemlərinin həlli başda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva olmaqla, hər bir azərbaycanlının ən ümdə məsələsinə çevrilib. Bu istiqamətdə artıq zəruri tədbirlər həyata keçirilir. Şəhid ailələrinin təminatlarının artırılması ilə əlaqədar təyin edilmiş ödənişlər 500 manata çatdırılıb. Eyni zamanda şəhid ailələrinin mənzil qayğılarının həll edilməsi istiqamətində mühüm addımlar atılır. Bununla əlaqədar məcburi köçkünlər üçün tikilən evlərin şəhid ailələrinə verilməsi nəzərdə tutulub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin balansında olan mənzillərin aidiyyəti üzrə istifadə edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilir. Ümumilikdə, dövlət başçısının 2020-ci ilin yekunlarına həsr edilmiş müşavirədə də bildirdiyi kimi, bu vaxta qədər 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən evlərlə və mənzillərlə təmin edilib. Bundan əlavə, 1500 şəhid ailəsi üçün də qısa müddətdə evlərin verilməsi nəzərdə tutulub. Bununla da dövlət həm məcburi köçkünlərin öz dədə-baba yurdlarına köçürülməsini təmin edəcək, həm də şəhid ailələrinin mənzil problemi birdəfəlik həll olunacaq”.

Adil Əliyev bildirib ki, mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də yerli icra hakimiyyətlərində şəhid ailələri və qazilərlə işləyəcək şöbələrin yaradılmasıdır. Belə ki, “Yerli icra hakimiyyətləri haqqında” Əsasnaməyə edilmiş dəyişiklik nəticəsində yeni yaradılmış struktur bölmələrin birbaşa təyinatı şəhid ailələri və qazilərimizlə işin təşkil edilməsidir. Bu isə, öz növbəsində, onların çətinliklərinin qısa müddət ərzində həllinə şərait yaradacaq.

“Biz Vətən müharibəsində qazandığımız şanlı qələbəmizə görə torpaqlarımız uğrunda canlarını qurban vermiş şəhidlərimizə, qazilərimizə borcluyuq. Onların bizə əmanət qoyduğu ailələri hər zaman diqqət və qayğı ilə əhatə olunmalıdır”, - deyə parlament sədrinin müavini vurğulayıb.

# Prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirir

**Yanvarın 8-də Baş Prokurorluqda 2020-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**





Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə tədbir iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyasını və ordu quruculuğunu inamla reallaşdıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi, zabitlərimizin, əsgərlərimizin qəhrəmanlığı sayəsində əbədi və əzəli torpaqlarımızın işğaldan azad edilərək tariximizin parlaq səhifələrinə həkk olunan şanlı Qələbənin milli birliyimizin, haqqın və ədalətin zəfəri olduğunu bildirib.

“Qarabağ Azərbaycandır və nida” devizini gerçəkliyə çevirən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş torpaqlarımızın qısa müddətdə bərpa ediləcəyinə əminlik ifadə olunub. Bu istiqamətdə Qarabağ Dirçəliş Fondunun yaradılması və Qarabağın döyünən ürəyi olan Şuşanın “Azərbaycanın mədəniyyət paytaxtı” elan edilməsi xüsusi vurğulanmaqla, işğaldan azad olunmuş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallığın təmin olunacağı, həyata keçiriləcək quruculuq-bərpa işlərinin ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirəcəyi diqqətə çatdırılıb.

Vurğulanıb ki, dövlətimizin əldə etdiyi hərbi-siyasi Qələbə 2020-ci ildə dünyada ciddi sosial-iqtisadi sınağa çevrilmiş yeni növ koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklər fonunda qazanılıb. Çoxsaylı dövlətlərin böhran təhlükəsi ilə qarşılaşmasına baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində ölkəmizdə pandemiyanın fəsadlarının minimuma endirildiyi, xəstəliyin geniş yayılmasının qarşısı alınmaqla sosial cəhətdən həssas əhali qrupuna davamlı dəstək və iqtisadi dayanıqlılığı təmin etmək məqsədilə vaxtında və operativ qərarların verildiyi xüsusi vurğulanıb.

Ölkə rəhbərliyinin göstərişi ilə aidiyyəti qurumların rəhbər şəxslərindən ibarət Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılmasının mövcud şəraitdə idarəetmənin və kommunikasiyanın düzgün qurulmasında, xəstəliyin yayılmasının qarşısının alınması üçün ilk günlərdən çevik və zəruri qabaqlayıcı addımların atılmasında mühüm rol oynadığı bildirilib.

Qeyd edilib ki, pandemiyanın bütün dünyada, o cümlədən Azərbaycanda yaratdığı sosial-iqtisadi çətinliklərə baxmayaraq, ölkə həyatının bütün sahələrində inkişaf tempi qorunub saxlanılmış, əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində əməli addımlar atılıb. Ötən il “Cənub qaz dəhlizi”nin son seqmenti olan TAP boru kəmərinin tam istismara verilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Avropa məkanına daxil olması ölkəmizin tarixi nailiyyətlərindən biri hesab edilməklə xalqımızın firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcəyi diqqətə çatdırılıb. Təsadüfi deyil ki, həyata keçirilən islahatlar mötəbər beynəlxalq təşkilatların hesabatlarında müsbət qiymətləndirilib, o cümlədən Dünya Bankının “Doing Business” hesabatında Azərbaycanın reytinqinin artaraq 190 ölkə arasında 28-ci yerdə qərarlaşması və 10 ən islahatçı ölkə sırasına daxil edilməsi qazanılmış uğurların bariz göstəriciləri olub.

Baş prokuror diqqətə çatdırıb ki, 2020-ci il Azərbaycan Respublikasının prokurorluq orqanları üçün də uğurlu olub. İctimai-siyasi sabitliyin digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlər görülüb.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi qeyd edilib, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Prezidentinin sərəncamı ilə prokurorluq orqanlarının 38 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsinin kollektivin böyük sevincinə səbəb olduğu vurğulanıb. Bu münasibətlə Prezident İlham Əliyevə prokurorluq işçiləri adından dərin minnətdarlıq bildirilib, gündəlik fəaliyyətin daha yüksək tələblər səviyyəsində qurulacağına əminlik ifadə olunub.

Xüsusi olaraq vurğulanıb ki, Vətən müharibəsi zamanı erməni hərbi birləşmələrinin beynəlxalq humanitar hüququ pozaraq dinc əhalini atəşə tutması, muzdluların iştirakı, terrorizm və sair cinayət faktlarının hər biri üzrə dərhal cinayət işlərinin başlanması, döyüş əməliyyatları şəraitində hadisə yerlərinin müayinəsi, maddi sübutların götürülməsi istiqamətində prokurorluq orqanları tərəfindən zəruri tədbirlər görülüb.

Bundan başqa, dövlət başçısının “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli Fərmanından irəli gələn vəzifələrin icrası məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işləri üzrə aidiyyəti qurumlarla birlikdə erməni vandalizmi nəticəsində planlı şəkildə talan edilmiş, dağıdılmış tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın, həmçinin atəşkəsin davam etdiyi illər ərzində əldən çıxmış faydanın məbləğinin müəyyənləşdirilməsi məqsədilə prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.

Eyni zamanda işğal altındakı ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində işlərin aparıldığı qeyd olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yaradılan və işğal nəticəsində vurulmuş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması üzrə Dövlət Komissiyasının, eləcə də işğaldan azad olunmuş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının fəaliyyətində də yaxından iştirak təmin edilir.

Əməliyyat müşavirəsində ötən ilin prokurorluğun tarixində də əlamətdar olduğunu qeyd edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2020-ci il mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən dövlət başçısının verdiyi göstəriş və tapşırıqların prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparılmasını labüd etdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, həmin tapşırıqlardan irəli gələn vəzifələrin icrası məqsədilə Fəaliyyət Planı təsdiq olunmaqla, qısa müddətdə prokurorluqda mütərəqqi struktur və kadr islahatları aparılıb, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə zəruri tədbirlər görülüb.

Eyni zamanda prokurorluğun fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın yenilənməsi, sistemli hala salınması məqsədilə “İşin Təşkili Qaydaları”, həmçinin prokurorluq orqanlarının yaxın gələcəkdə fəaliyyət və inkişaf istiqamətlərini müəyyənləşdirən rəhbər sənəd kimi, “Prokurorluğun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası” hazırlanaraq təsdiq olunub.

Məlumat verilib ki, korrupsiyaya qarşı mübarizə ötən il də diqqət mərkəzində saxlanılıb. Hesabat dövründə korrupsiya hüquqpozmasına yol vermiş 281 şəxs barəsində 180 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib, 49 milyon 153 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib. Həmçinin 13 milyon 283 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Ötən il prokurorluq orqanları koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində də üzərlərinə düşən vəzifələri səylə yerinə yetirərək, karantin, sanitar-gigiyena rejim qaydalarının pozulmasına qarşı kəsərli profilaktik cinayət-hüquqi və inzibati təsir tədbirləri həyata keçirib, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarının icrasına nəzarət ediblər.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkarlanan nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2020-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində olub. Belə ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə, 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib. Onların 2-si prokurorluq orqanlarından xaric olunub, 8 nəfər vəzifəsindən azad edilib. Həmçinin 15 nəfərə töhmət və ya şiddətli töhmət verilib, 5 nəfər barəsində isə digər intizam tənbehi tədbiri tətbiq olunub.

Əməliyyat müşavirəsində Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2020-ci ilin nəticələrinə görə artımın müşahidə olunduğu cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Eyni zamanda hesabat dövründə görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən halların Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin ardıcıllığı təmin edilməklə bütün neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasının vacibliyi vurğulanıb.

Sonda 2020-ci ildə görülmüş işlərin vəziyyətinin ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev ümidvar olduğunu bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2021-ci ildə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçiriləcək tədbirlərin reallaşdırılmasında, cinayətkarlığa qarşı digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunmasında öz səlahiyyətləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək.

İlin uğurlu yekunları

# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

*Əvvəli 1-ci səh.*

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində etdiyi növbəti paylaşım da bununla bağlı idi. "Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız, həqiqətən, tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!"- deyə Mehriban Əliyeva yazdı.

Oktyabrın 5-də cəbhədən növbəti qələbə xəbəri gəldi. "Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!" - deyə İlham Əliyev elan etdi.

Həmin günlərdə Prezident İlham Əliyev "Əl-Ərəbiyə", Türkiyənin "TRT Haber", CNN-Türk, "Euronews" və Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibələr verdi. Ali Baş Komandan bir daha bəyan etdi ki, Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq. *"Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur".*

### Düşmənin hərbi obyektləri ordumuzun dəqiq atəşləri ilə məhv edildi

Ağır məğlubiyyətə uğrayan Ermənistanın hədəfi isə Azərbaycanın mülki yaşayış məskənləri və mülki vətəndaşları idi. Ordumuzun sürətlə irəliləməsindən sonra düşmənin silahlı qüvvələri beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini Azərbaycanın mülki əhalisini və infrastrukturunu daha intensiv şəkildə hədəfə almağa başladı. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, sənaye şəhəri olan Mingəçevir, habelə Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və müstəsna əhəmiyyətli infrastrukturun xüsusən də Ermənistan ərazisindən məqsədyönlü şəkildə raket hücumlarına tutulması münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdən təxribat idi. Belə ki, Azərbaycanın mülki əhalisi və infrastruktur obyektləri məhz Ermənistan ərazisindən, o cümlədən Gorus, Sisyan, Cermuk və Berd şəhərlərindən raket atəşinə tutulurdu. Bu hərbi təxribat olmaqla yanaşı, Ermənistan siyasi-hərbi rəhbərliyinin zəifliyini və panikada olduğunu göstərirdi.

Azərbaycan legitim hərbi hədəflərə yönəlməklə ermənilərə adekvat cavab verdi və düşmənin hərbi obyektləri ordumuzun dəqiq atəşləri ilə məhv olundu.

Oktyabrın 6-da İran Prezidenti Həsən Ruhani Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını ifadə edib və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, sentyabrın 27-dən başlamış və bu gün də davam edən Ermənistanın hərbi təxribatı nəticəsində təmas xətti boyu yerləşən hərbi birləşmələrimizin mövqeləri və yaşayış ərazilərimiz Ermənistan tərəfindən ağır artilleriya atəşinə məruz qalıb. Nəticədə hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlət başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur. Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davam edən hərbi təcavüzü və təxribatları regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəldir.

Dövlət başçıları iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək uğurlu inkişafı ilə bağlı məsələləri müzakirə edib və əlaqələrimizin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

Oktyabrın 7-də Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə ad günü münasibətilə zəng edərək təbriklərini çatdırıb, Rusiyanın inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində ona yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. Söhbət zamanı dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar yaranmış vəziyyəti müzakirə ediblər, o cümlədən Azərbaycan-Rusiya əlaqələrinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

### Bütün dünya gördü ki, Azərbaycan tək deyil

Azərbaycan-Türkiyə birliyinin nə demək olduğunu 44 günlük müharibədə bütün dünya daha yaxından gördü. Dostluq və qardaşlıq əlaqələrindən irəli gələrək Türkiyə Dağlıq Qarabağ məsələsində ilk gündən Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və işğalçı Ermənistanla heç bir siyasi-diplomatik münasibət qurmur. Eyni zamanda Türkiyə bütün diplomatik səviyyələrdə daim Azərbaycanın haqlı mövqeyini müdafiə edib.

Sentyabr ayında hərbi əməliyyatların başlanmasından sonra Türkiyənin siyasi və hərbi rəhbərliyinin qətiyyətli və kəskin bəyanatları göstərdi ki, qardaş dövlət Azərbaycanı heç vaxt tək qoymayacaq. Türkiyə Prezidenti, xarici işlər və müdafiə nazirləri ilk gündən Azərbaycanın yanında olacaqlarını bəyan etdilər. Eyni zamanda Türkiyə ictimaiyyəti bütünlüklə xalqımızın haqq işinə dəstəyini ifadə etdi.

Prezident İlham Əliyev oktyabrın 6-da Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bütün bunlar barədə demişdi: "Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir".

### Hadrutun alınması cənub cəbhəsinin strateji uğuru idi

Oktyabrın 9-da, Azərbaycan xalqına döyüşlər başlayandan sonra sayca üçüncü müraciətini edən Prezident İlham Əliyev növbəti qələbə müjdəsini çatdırdı. Xocavənd rayonunun Hadrut qəsəbəsinin və Sur kəndinin, Tərtər rayonunun Çaylı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı, Cəbrayılın Qışlaq, Qaracallı, Əfəndilər və Süleymanlı kəndlərinin azad edilməsi Azərbaycan Ordusunun müzəffər yürüşünün uğurla və inamla davam etdiyini göstərdi.

Qeyd edək ki, artıq həmin tarixə qədər, yəni müharibənin 12 günü ərzində Azərbaycan Ordusunun Ermənistana vurduğu zərbənin miqyası kifayət olduqca güclü və miqyaslı idi. Belə ki, cəmi 12 gün ərzində Ermənistan ordusunun 16 komanda məntəqəsi, 196 tankı, 38 BM-21, 1 "Uraqan", 8 "Akasiya", 2 "Qvozdika" artilleriya qurğuları, 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni məhv edilmişdi. 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını isə qənimət götürülmüşdü.

Həmin günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın qarşısında davam gətirə bilmədiklərini görüb dayanmadan ayrı-ayrı dövlətlərin rəhbərlərinə zəng edirdi. Azərbaycan Ermənistanı sözün əsl mənasında peşman etmişdi. Erməni mənbələri nə qədər gizlətməyə çalışsalar da hər gün bu ölkənin şəhər və kəndlərinə saysız-hesabsız əsgər meyitləri gedirdi və xəstəxanalarda yaralı əlindən yer qalmamışdı.

İlham Əliyevin şərtləri isə ilk gündən aydın idi. Düşmənin xilasının yeganə yolu torpaqlarımızdan çıxması idi. *"Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük",* - deyə İlham Əliyev oktyabrın 9-da etdiyi müraciətdə bildirirdi.

Amma Ermənistanın siyasi-hərbi rəhbərliyi bu reallığı dərk edə bilmədi və Moskvada əldə olunmuş humanitar razılaşmanı da işğalçı pozaraq Azərbaycanın azad etdiyi əraziləri geri qaytarmağa cəhd göstərdi və bundan sonra başlanan yeni hücum əməliyyatları ilə ordumuz qələbələrini davam etdirdi və oktyabrın 14-də Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri, oktyabrın 15-də Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri, oktyabrın 16-da isə Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edildi.

**(Ardı var)**

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Azərbaycan diplomatiyası keçən il zirvədə oldu

Yola saldığımız 2020-ci il ölkəmizin həm qədim, həm də müasir tarixində möhtəşəm zəfər ili kimi yadda qaldı. 44 gün davam etmiş Vətən müharibəsi 30 ilə yaxın erməni işğalı altında qalmış əzəli torpaqlarımızın düşmən tapdağından qurtulması ilə yaddaşlara həkk olundu.

Yeni tip koronavirus pandemiyasının dünyanı çənginə aldığı ağır dövrdə səbir kasası çoxdan dolmuş Azərbaycan xalqının sosial sifarişi ilə Silahlı Qüvvələrimiz təcavüzkar Ermənistanın ardı-arası kəsilməyən təxribatlarına birdəfəlik son qoymaqdan başqa çıxış yolu görünmədiyindən Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə hərəkətə keçib düşmənin daşını daş üstündə qoymadı.

Azərbaycan rəhbərliyinin belə bir qəti qərarı erməni təcavüzkarının başını sığallayan müəyyən beynəlxalq dairələri çaş-baş saldı. Rəsmi İrəvan və Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində vasitəçilik edən böyük dövlətlər hesab edirdi ki, Bakı işğal altında qalan ərazisini hərbi güc tətbiq etməklə işğalçılardan təmizləməyə cəsarət etməyəcək, yaranmış reallıqla əvvəl-axır barışmalı olacaq. Hərçənd Prezident İlham Əliyev dəfələrlə xatırlatmışdı ki, münaqişənin hərbi həlli yolu da var. Bakının zaman-zaman səsləndirdiyi belə bəyanatlara cavab verilirdi ki, Azərbaycan müharibə barədə düşünməməlidir, çünki silaha əl atsa, nail olduğu inkişaf tempindən geri qalar.

Təcavüzkar Ermənistan da güclü havadarlarına bel bağlayıb ümid edirdi ki, Azərbaycanla yenidən silahlı qarşıdurma yaransa, təcavüzkar dövlətin havadarları dərhal ayağa qalxıb İrəvanın yanında yer alacaqlar. Lakin Ermənistan faşist rejimi anlamaq istəmirdi ki, hər dövlətin öz milli maraqları var və bu maraqları kiməsə qurban vermək fikrində deyil. Azərbaycan Cənubi Qafqazda kilid dövlət kimi mövqe qazanmışdı və onunla hesablaşmaq məcburiyyətində qalan ölkələrin sayı get-gedə artırdı. Üstəlik, Birinci Qarabağ müharibəsindəki dövrdən fərqli olaraq Azərbaycan güclü ordu yaratmışdı və onun Silahlı Qüvvələri məqam gələn kimi işğal altındakı ərazilərini erməni işğalçılarından təmizləmək iqtidarında idi. Eyni zamanda təcavüzkar tərəf belə bir mif yaratmışdı ki, Azərbaycan əsgərinin erməni təcavüzkarı ilə döyüşmək hünəri yoxdur və ona görə də müharibənin yenidən alovlanmasını gözləmək yersizdir.

Əslində düşmənin özü Azərbaycan Ordusunun hərəkətə keçməsinə fürsət verdi: təcavüzkarın növbəti təxribatı onun darmadağın olması ilə nəticələndi. Təbii ki, Vətən müharibəsinin gedişində Ermənistanın havadarları əl-ayağa düşüb "ərköyün uşağ"ını xilas etməyə cəhd göstərdilər. ATƏT-in Minsk qrupunun həmsədri qiyafəsi geymiş Fransa xüsusi canfəşanlıq nümayiş etdirir, Azərbaycan Ordusunu hər vəchlə dayandırmağa çalışırdı. Qərbin bir sıra digər dövlətləri də susmur, Ermənistan-Azərbaycan münaqişəsi cəbhəsində atəşkəsə nail olmaq üçün dəridən-qabıqdan çıxırdı.

Belə bir şəraitdə Azərbaycan Ordusu ilə yanaşı, Azərbaycan diplomatiyası da hərəkətə keçdi. Ayrı-ayrı dövlətlər, bütövlükdə dünya ictimaiyyəti hadisələrin mahiyyəti barədə yetərincə məlumatlandırıldı, erməni tərəfinin uydurmaları ifşa edildi. Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı başlayandan bəri bəyan edirdi ki, Azərbaycan hərbi əməliyyatı dayandırmağa hazırdır, bir şərtlə ki, Ermənistan tərəfi işğal etdiyi torpaqlardan çıxmaq qrafikini təqdim etsin. Məlum olduğu kimi, Azərbaycan istəyinə nail oldu və ötən il noyabrın 10-da imzalanmış Azərbaycan-Rusiya-Ermənistan müştərək Bəyanatına uyğun olaraq Dağlıq Qarabağ bölgəsinin ətrafında işğal altında qalmaqda olan üç rayon - Ağdam, Laçın və Kəlbəcər döyüşsüz Azərbaycana qaytarıldı.

Ümumiyyətlə, Vətən müharibəsinin gedişində Azərbaycan əsgəri ilə bərabər, Azərbaycan diplomatiyası da vuruşurdu. Prezident İlham Əliyev diplomatik mübarizənin ön səngərində idi. Dövlət başçısı istər ayrı-ayrı ölkələrin rəhbərləri ilə telefon danışıqlarında, istərsə də dünyanın çoxsaylı media orqanlarına müsahibələrində həqiqəti dünya ictimaiyyətinə çatdırır, Ermənistan və onun havadarlarının irəli sürdükləri iddiaların əsassız olduğunu sübut edir, onların kütləvi informasiya vasitələrini işə salıb Azərbaycana qarayaxma kampaniyasını puç edirdi.

Azərbaycanın bədxahları ordumuzun ard-arda qazandığı qələbələrə kölgə salmaq üçün cürbəcür uydurmaları dövriyyəyə buraxmaqdan çəkinmirdilər. Bu istiqamətdə Fransanın hərəkətləri xüsusilə qərəzli görünürdü. Sözügedən dövlət beynəlxalq vasitəçi kimi neytrallığını tamamilə unudub Ermənistanın ekspansionist planlarını birmənalı şəkildə dəstəkləyir, Azərbaycanın suverenliyini açıq-aşkar şübhə altına alır, Dağlıq Qarabağdakı separatçı-terrorçu rejimi az qala beynəlxalq hüququn subyekti kimi təqdim etməyə çalışırdı.

Fransa prezidenti Emmanuel Makronun bu məzmunda bəyanatları Bakının sərt reaksiyası ilə qarşılaşdı. Prezident İlham Əliyev fransız həmkarının nəzərinə çatdırdı ki, münaqişə zonasında döyüş əməliyyatlarının yenidən başlamasına Ermənistan rejiminin qeyri-konstruktiv mövqeyi səbəb olmuşdur. Belə ki, rəsmi İrəvan şüurlu şəkildə danışıqlar prosesini pozmuşdur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurmuşdur. Digər tərəfdən, "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı danışıqlar formatını dəyişdirmək cəhdidir ki, bu da qəbuledilməzdir. Belə bir yanaşmanı ATƏT-in Minsk qrupu da rədd etmişdir.

Erməni "bacı"sını düşdüyü ağır vəziyyətdən çıxarmağa çalışan Fransa həddini aşanda Prezident İlham Əliyevin kəskin bəyanatı illə qarşılaşdı: "Kiminsə tarixi, hüquqi Azərbaycan torpağında erməni dövləti yaratmağı bizdən tələb etməsi heç bir məntiqə, heç bir ədalətə sığmır. Sizin bizim torpağımızda nə işiniz var? Min kilometrlərlə məsafədə yerləşən ölkələr indi qanunlar qəbul edirlər, parlamentlər bu məsələni müzakirə edirlər. Nə işi var Fransa parlamentinin bizim məsələ ilə əlaqədar? Neçə ildir Fransa Minsk qrupunun həmsədridir? Daşı daş üstə qoyub? Bir məsələnin həlli üçün praktiki addım atıb? İndi məsələ həll olunandan sonra görün nələr baş verir? Fransa Senatı qətnamə qəbul edir ki, Dağlıq Qarabağ tanınsın. Sizin onlardan xoşunuz gəlirsə, verin Marsel şəhərini, onun adını dəyişdirin, onlara orada ikinci dövlət yaradın. Amma bizim işimizə heç kim qarışa bilməz".

Fransa və Ermənistanın digər havadarları Azərbaycanın haqq işini başqa istiqamətlərə yönəltməkdən də çəkinmirdilər. Məsələn, guya Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ona bitişik rayonlarında xristian irsinə təhlükə yarana bilər və ona görə də müvafiq tədbirlər görülməlidir. Bu iddiaya ifrat həyasızlıqdan başqa ad vermək mümkün deyil. Axı, bütün dünyaya, o cümlədən Fransa və ona dəm tutan Rusiyaya yaxşı məlumdur ki, Azərbaycan tolerant ölkədir, burada hansısa dini dözümsüzlükdən söhbət gedə bilməz. O da məlumdur ki, Azərbaycan rəhbərliyi nəinki ölkə daxilində, eləcə də xaricdə, o cümlədən Fransada xristian məbədlərinə qayğı ilə yanaşır, onların təmir və bərpasına vəsait ayırır. Görəsən, bu, nə tez Makronun yadından çıxdı? Azərbaycan tarixinin hansı mərhələsində yerli əhali dini, yaxud etnik azlıqlara başqa gözlə baxıb? Hamı bilir ki, belə bir faktı heç kim axtarıb tapa bilməz.

Bədxahlarımız Vətən müharibəsinin gedişində Azərbaycana qarşı başqa bir ittihamla da "silahlanmışdılar": guya ki, Azərbaycan Ordusunun sıralarında Yaxın Şərqdən, daha doğrusu, Suriyadan gətirilmiş terrorçular vuruşurlar. Özü də heç bir dəlil-sübut gətirmədən. Buna deyirlər ki, adımı sənə qoyum, səni də yana-yana. Amma bu cür cəfəng uydurmalar, ağ yalanlar qarşısında Azərbaycan yana-yana qalan deyildi. Prezident İlham Əliyev dünyanın bir sıra aparıcı KİV-inə verdiyi müsahibələrdə bu sərsəm iddianı qətiyyətlə rədd edirdi: "Fransa Prezidenti ilə telefon söhbətlərimdə mən bizim mövqeyimizi kifayət qədər əsaslandırmışam. Əvvəla, sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişəm. İkincisi, mən demişəm ki, bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələri nəzərə almasaq, bizim nizami orduda 100 min döyüşçümüz var". Dövlət başçısı həmsöhbət olduğu xarici jurnalistlərə xatırladırdı ki, Azərbaycan xaricdən başıpozuq silahlı birləşmələr gətirməyə ehtiyac duymur, çünki ehtiyac yarananda ehtiyatda olan on minlərlə adamı cəlb etmək mümkündür.

Eyni zamanda Azərbaycana da, onun bədxahlarına da sirr deyildi ki, Dağlıq Qarabağda Silahlı Qüvvələrimizə qarşı təkcə Ermənistan ordusu yox, həm də xaricdən gəlmiş muzdlu silahlılar vuruşurdular. Prezident İlham Əliyev bu məqamı da beynəlxalq ictimaiyyətin nəzərinə çatdırmışdır. Dövlət başçısı bildirirdi ki, Ermənistanın əcnəbi silahlı muzdlulara ehtiyacı var, çünki bu ölkənin əhalisinin sayı ildən-ilə azalır, indi 2 milyon nəfərdən çox deyil: "Ona görə də onlar özləri Yaxın Şərqdən insanları cəlb edirlər və bizim sübutumuz var, təkcə erməni əsilliləri deyil. Yeri gəlmişkən, Yaxın Şərqdən gələnlərin erməni əsilli olması və ya qeyri-erməni əsilli olmasının heç bir fərqi yoxdur. Əgər kimsə xaricdən muzdlu kimi döyüşməyə gəlirsə, bununla beynəlxalq səviyyədə məşğul olunmalıdır".

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanın müvafiq hakimiyyət orqanları Ermənistanın ölkəmizə qarşı son hərbi təxribatı zamanı erməni diaspor təşkilatları tərəfindən təsis edilmiş fondlar vasitəsilə işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejimə və silahlı birləşmələrə maliyyə dəstəyi göstərilməsinin qarşısının almaq məqsədilə "xeyriyyə təşkilatları" adı altında bu cür dəstəyi həyata keçirən qurumlar, eləcə də onlara xidmət göstərən bank və maliyyə təşkilatları barədə hesabat hazırlayaraq BMT-nin üzvü olan ölkələrdə maliyyə monitorinqi həyata keçirən strukturlara və müvafiq profilli beynəlxalq təşkilatlara təqdim etmiş, fəaliyyəti terrorçuluğun maliyyələşdirilməsinə yönəlmiş bu cür fondlara və qurumlara qarşı sərt tədbirlər görməyi tələb etmişdir. Amma Azərbaycana qara yaxmaqdan başqa heç bir iş-güc tapa bilməyən məlum dairələr hələ də bu faktlardan yan keçib susur. ATƏT-in Minsk qrupundan da səs çıxmır. Azərbaycanın belə bir vasitəçilik missiyasına bundan sonra, çox güman, ehtiyacı qalmayacaq.

Bütövlükdə ötən il Azərbaycan diplomatiyası zirvədə oldu. Dövlətimiz haqq işini ordusu ilə yanaşı, diplomatiyası ilə müdafiə etdi. Bu, xarici siyasətimizin parlaq qələbəsi idi. Eyni zamanda Azərbaycan Vətən müharibəsinin gedişində həm dostlarını, həm də düşmənlərini bir daha tanıdı. Dostlar çox idi, düşmənlər isə iqtisadi-hərbi baxımdan güclü olsalar da, ədaləti üstələyə bilmədilər. Azərbaycanın haqq işinə qarşı çıxanlar heç nə qazanmadılar, onlar ölkəmizin timsalında sadiq dost, etibarlı tərəfdaş itirdilər.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan 2020-ci ilin sınaqlarından qələbə ilə çıxdı

**Prezident İlham ƏLİYEV:** "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır"



*Əvvəli 1-ci səh.*

Bu sahədə ilkin infrastruktur layihələrinin icrasına artıq başlanıb. Birinci layihə Şuşa şəhərinə yol çəkilişidir. Çünki Şuşaya ənənəvi yollar hazırda bizim üçün o qədər də məqbul deyil. Odur ki, bu gün oraya getmək üçün yeni yol çəkilişi mütləq lazımdır. Relyefin çətinliyinə və xüsusilə indi qış fəsli olduğuna baxmayaraq, Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu inşa olunur.

Start verilən digər layihə isə Toğanalı - Kəlbəcər yoludur. Bu da çox çətin relyefdən keçən bir yoldur, çünki bəzi yerlərdə yüksəklik 3500 metrə çatır. İndiki hava şəraitində bura ilə irəliləmək çətin olsa da, tunellərin tikintisi nəzərdə tutulur və bu layihə də icra edilir. Horadizdən Zəngilana, oradan Qubadlıya və Qubadlıdan Laçın rayonuna qədər yol çəkilşi üçün hazırlıq işləri gedir. Toğanalıdan Kəlbəcərə çəkiləcək yol da Laçın rayonuna qədər davam etdiriləcək.

Füzuli şəhərində beynəlxalq hava limanı tikiləcək. Bu, Şuşaya gəlmək istəyən xarici qonaqların rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya yollanması deməkdir. Daha bir beynəlxalq aeroport isə ya Kəlbəcərdə, ya da Laçında olacaq. Beləliklə, iki beynəlxalq aeroport Qarabağ zonasının bərpasına, yüklərin daşınmasına, turizmin inkişafına və yerli sakinlərin rahatlığına xidmət edəcək.

Qarabağda həm ənənəvi, həm də bərpaolunan enerji növləri geniş vüsət alacaq. Enerji sistemi ölkənin ümumi enerji sisteminə tam inteqrasiya ediləcək.

Dəmir yolları ilə bağlı da artıq göstəriş verilib. Horadiz-Füzuli və sonra Füzuli-Şuşa dəmir yolunun tikintisi nəzərdə tutulur. Şuşaya rahat gedişgəlişi təmin etmək üçün mütləq dəmir yolu da çəkilməlidir. Bu layihəyə də cari ildə start veriləcək.

Eyni zamanda Horadiz-Ağbənd dəmir yolu yenidən tikiləcək. Çünki Ağbənd Zəngilan rayonunda Ermənistan sərhədinə yaxın olan qəsəbədir, mənfur düşmən bu yolu dağıdıb və tamamilə sıradan çıxarıb. Naxçıvan dəhlizini açmaq üçün isə bu yol xüsusi əhəmiyyət daşıyır. Hazırda Naxçıvan dəhlizinin açılması üçün də konkret işlər gedir.

Qarşıda həmçinin azad edilmiş torpaqlarda kənd təsərrüfatının məhsuldarlığının artırılması üçün suvarma işlərinin sürətləndirilməsi vəzifəsi dayanır. Burada su mənbələri kifayət qədər çoxdur. Odur ki, ən müasir suvarma sistemləri təşkil edilməlidir.

Sözügedən müşavirədə Prezident İlham Əliyev bildirib ki, 2021-ci il çox əlamətdar olmalıdır. Ona görə ki, planlarımız böyükdür: "Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik... Biz Qarabağ bölgəsində cənnət yaradacağıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İşğaldan azad edilmiş ərazilərdə müasir sosial infrastruktur qurulacaq

**"2020-ci il Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfəri ilə tariximizə qızıl hərflərlə yazıldı. Artıq azadlığına qovuşmuş doğma yurd yerlərimizin bərpası və yenidən qurulması işləri çərçivəsində həmin bölgələrdə müasir sosial infrastruktur qurulacaq".**

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlikdə keçirilən iclasda bildirib. İclas Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə dövlət başçısının sosial sahə ilə bağlı verdiyi tapşırıqların icrası ilə bağlı qarşıda duran vəzifələrə həsr olunub.

Nazir diqqətə çatdırıb ki, 2020-ci ildə sosial müdafiə və aktiv məşğulluq proqramları əhəmiyyətli dərəcədə genişlənib. Müşavirədə də dövlət başçımız keçən il sosial sahə ilə bağlı çox böyük işlər görüldüyünü qeyd edərək deyib: "Bu il biz şəhid ailələri üçün daha böyük həcmdə evlərin verilməsini təmin etməliyik. Bütövlükdə 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən evlərlə və mənzillərlə təmin edilib". S.Babayev bildirib ki, ötən il 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulub, artıq yaxın günlərdə bu planın icrası tam başa çatacaq. Dövlət başçısı bu proqramın cari ildə də davam etdirilməli olduğunu, Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəyini bildirib. Bu tapşırığın icrası ilə bağlı işlər nazirlik tərəfindən yüksək səviyyədə yerinə yetiriləcəkdir.

Ötən il özünüməşğulluq proqramının daha da genişləndirilərək 12 min şəxsi əhatə etdiyini deyən nazir 2021-ci il üçün proqrama bundan daha çox olmaqla 16 min şəxsin cəlb olunmasının planlaşdırıldığını bildirib. O ötən il daha bir DOST mərkəzinin, müasir tələblərə uyğun qurulmuş 6 reabilitasiya müəssisəsinin açıldığını deyib. Ərazilərimizin işğaldan azad edilməsi uğrunda döyüşlərdə yaralanmış qəhrəman insanlarımızın müalicə tədbirlərindən sonra kompleks tibbi-sosial reabilitasiya xidmətləri ilə əhatə olunmaları üçün müasir reabilitasiya sistemi yaradıldığını qeyd edib.

S.Babayev nazirliyin e-arayış xidmətlərinin sayının daha da artaraq 61-ə (o cümlədən proaktiv xidmətlərin sayının 34-ə) çatdığını deyib, son bir ildə 95 min pensiya, müavinət, təqaüd təyinatının elektron qaydada, proaktiv şəkildə aparıldığını, ünvanlı dövlət sosial yardımı proqramının genişləndirildiyini diqqətə çatdırıb. O bu il də qeyd edilən istiqamətlərdə yeni mühüm işlərin aparılacağını vuğulayıb.

İclasda dövlət başçısının tapşırıqlarının icrası olaraq görüləcək işlər ətraflı müzakirə olunub.

# Yanacağın qiymət artımı ilə bağlı daşıyıcılara dəstək veriləcək

Bakı Nəqliyyat Agentliyində (BNA) müntəzəm sərnişindaşıma fəaliyyəti göstərən sahibkarlarla görüş keçirilib.

Görüşdə dizel yanacağının qiymətinin tənzimlənməsi, son 5 ildə sərnişindaşıma sahəsində görülən işlər və nəzərdə tutulan məsələlər müzakirə olunub.

Agentliyin idarə heyətinin sədri Vüsal Kərimli xatırladıb ki, vətəndaşlara rahat və təhlükəsiz nəqliyyat xidmətlərinin göstərilməsi daim dövlətin diqqətindədir. Dövlət başçısının tapşırığına uyğun olaraq son 5 ildə vətəndaşlara rahat və təhlükəsiz sərnişindaşıma xidmətinin göstərilməsi üçün ardıcıl və məqsədyönlü tədbirlər görülüb. Müasir və komfortlu avtobuslar gətirilməklə avtobus parkının 40 faizi yenilənib.

İdarə heyətinin sədri dizel yanacağının qiymət artımı ilə bağlı məsələlərə toxunaraq bildirib ki, bununla əlaqədar daşıyıcılara müəyyən dəstək tədbirləri nəzərdə tutulub. Bu məqsədlə İqtisadiyyat Nazirliyi ilə birgə müvafiq təhlillər aparılır. Dəstək tədbirlərinin göstərilməsi bir daha dövlətin həm sahibkarlıq subyektlərinin, həm də gündəlik ictimai nəqliyyatdan istifadə edən əhalinin, xüsusilə sosial həssas qrupun mənafeyinin qorunmasına verdiyi önəmi göstərir. Daşıyıcılara suiistifadə və əsassız qiymət artımına yol verilməməsinə dair xəbərdarlıq olunub.

Görüşdə problemlər və qarşıda duran vəzifələrə də toxunulub. Qeyd olunub ki, düzgün və şəffaf idarəetmə şəraitinin yaradılmasına baxmayaraq, daşıyıcılar avtobus parkının yenilənməsində fəal deyillər. Lakin vətəndaşların rahatlığı və təhlükəsizliyinin vacibliyi nəzərə alınaraq bu il qəsəbələr üzrə avtobus parkı mütləq qaydada yenilənməlidir. Bu tələbə əməl etməyən daşıyıcılar isə marşrut şəbəkəsindən kənarlaşdırılacaq.

Bəzi daşıyıcılar müəyyən qüvvələrin dəstəyi ilə avtobusların yenilənməsi, eləcə də "BakıKart"a keçid prosesini gecikdirmək məqsədilə süni narazılıqlar və problemlər yaradırlar. Bildirilib ki, bu kimi cəhdlər uğursuzdur və bunu edənlərə qarşı ciddi tədbirlər görüləcək.

V.Kərimli gündəlik olaraq avtobusların qarajlardan çıxışına nəzarətin gücləndirilməsi, reysqabağı texniki və tibbi müayinə ilə bağlı monitorinqlərin aparılmasına dair tapşırıqlar verib.

# KOBİA Dubayla əməkdaşlıq imkanlarını müzakirə edib

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərinə səfər çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndə heyəti müxtəlif qurumların nümayəndələri ilə KOB sahəsində əməkdaşlıq perspektivlərini müzakirə edib.

KOBİA-dan verilən məlumata görə, qurumun idarə heyətinin sədri Orxan Məmmədov və Dubay İnvestisiya Korporasiyasının baş direktorunun müavini Xalifa Hassan Al Daboos arasında təşkil olunmuş görüşdə ölkəmizdə KOB-lara göstərilən dövlət dəstəyi tədbirləri və agentliyin fəaliyyəti barədə məlumat verilib, əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, Azərbaycanda fəaliyyət göstərən sənaye parklarında yaradılmış əlverişli imkanlardan və güzəştlərdən istifadə olunmaqla birgə layihələrin həyata keçirilməsi, Dubay İnvestisiya Korporasiyasının maliyyə dəstəyi ilə ölkəmizdə KOB-ların iştirakı ilə layihələrin reallaşdırılması, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində xarici investorların biznes layihələr həyata keçirməsi üçün imkanlar genişdir.

Dubay Ticarət və Sənaye Palatasının prezidenti Hamad Buamim ilə görüşdə Azərbaycan KOB-larının xarici bazarlara çıxışı, KOBİA-nın KOB-ların bilik və bacarıqlara, təlimlərə çıxışını təmin edən KOB inkişaf mərkəzləri və palatanın tərkib hissəsi olan Dubay Startap Şəbəkəsi arasında əməkdaşlıq və təcrübə mübadiləsi, Azərbaycan və BƏƏ arasında İşgüzar Şuranın yaradılması istiqamətində əməkdaşlığın davam etdirilməsi məsələləri müzakirə edilib. Həmçinin görüşdə palataya üzv şirkətlərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində investisiya layihələrinin həyata keçirilməsində iştirak edə biləcəyi və bu sahədə KOBİA-nın onlara informasiya, məsləhət, yerli tərəfdaşların tapılması, bazar araşdırması kimi istiqamətlərdə dəstək göstərə biləcəyi diqqətə çatdırılıb.

# Saatlıda Türkiyədən gətirilən yeni heyva sortundan bağ salınır

Saatlıda Türkiyə sortu kimi tanınan "Eşmə" heyva növü yetişdiriləcək. Artıq bağın müəyyən hissəsində tinglər əkilib. Bağ innovativ üsulla becəriləcək.

AZƏRTAC xəbər verir ki, Saatlıda ilk dəfə olaraq Türkiyədən gətirilən heyva tinglərindən bağın salınmasına başlanılıb. Bağ üçün rayonun Qaralar kəndi ərazisində 25 hektar ərazi ayrılıb.

Təsərrüfat sahibi Ələsgər Əhmədov bildirir ki, intensiv bağın salınması üçün əvvəlcə torpaqdan analiz götürülüb və bağın tirə üsulu ilə əkilməsinə qərar verilib. Məqsəd isə ağac köklərinin qrunt sularından qorunmasıdır. Bağda 50 min ədəd "Eşmə" sortundan olan ting əkiləcək.

Bağın barvermə qabiliyyəti 2-ci ildən başlayacaq. Hər ağac əvvəlcə 6-8 kiloqram meyvə verə biləcək.



Məhsuldarlıq ağacların üç yaşında hər ağacda 10-20 kiloqrama, sonrakı illərdə isə 30-40 kiloqrama çatacaq və ondan da çox olacaq. Bağın barvermə müddəti isə 30-40 ilə bərabərdir.

Yüksək məhsul götürmək üçün öncədən də bir çox aqrotexniki işlər yerinə yetirilib. Bağban İsmayıl Ağayev söyləyir ki, əkin işlərinə qədər sahədə şum və mala işləri görülüb. Eyni zamanda tirələr çəkilərək ting üçün quyular qazılıb. Artıq tinglərin üçdəbir hissəsi əkilib. "Eşmə" sortu yerli heyvadan bir çox xüsusiyyətləri ilə seçilir, dadlı və yumşaq olur.

Bağın salınması, eyni zamanda, əlavə iş yerinin də açılmasına şərait yaradacaq. Hazırda əkin işləri ilə 100-ə yaxın kənd sakini məşğul olur.

# Prezidentin tapşırığı icra olunur

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədəki çıxışında məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlərin şəhid ailələrinə verilməsi barədə qərar qəbul etdiyini açıqlayıb.



Dövlət başçısı deyib: "Artıq göstəriş verdim ki, "Dövlətqaçqınkom"un balansında olan mənzillər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilsin. Kifayət qədər böyük bir proqramdır. Ona görə həm müharibəyə qədər növbədə dayanan şəhid ailələri yerləşdirilməlidir bu evlərdə. Eyni zamanda İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin yaxınları bu evlərdə yerləşdirilməlidir. Bu, ədalətli qərardır. Hesab edirəm ki, köçkünlər, bağışlayın, keçmiş köçkünlər bunu düzgün anlayacaqlar. Mən hər şeyi həmişə necə var, elə də demişəm. Mən bilirəm ki, onlar bu evləri uzun illər idi gözləyirdilər, amma indi torpaqlar azad olunub. Ona görə, keçmiş köçkünləri Bakıda, Gəncədə, Sumqayıtda yerləşdirmək heç bir məntiqə sığmır. Onlar üçün nəzərdə tutulmuş evləri şəhid ailələrinə vermək çox düzgün qərardır".

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yaydığı məlumatda bildirilir ki, ötən il məcburi köçkünlər üçün inşa olunmuş yaşayış sahələrinin dövlət başçısının göstərişinə uyğun şəkildə istifadəsini təmin etmək üçün müvafiq tədbirlərin görülməsinə başlanılıb. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi bildirir ki, 2020-ci ildə Bakı şəhərinin Qaradağ rayonundakı "Ümid" qəsəbəsində 180 ailə üçün beşmərtəbəli 3 yaşayış binasının, Binəqədi rayonunun Xocasən qəsəbəsində doqquzmərtəbəli 5 binadan ibarət 810 ailəlik yeni məhəllənin, 624 şagird yerlik məktəb binasının, 140 yerlik uşaq bağçasının, inzibati binanın və texniki infrastruktur obyektlərinin, Sabunçu rayonunun inzibati ərazisində doqquzmərtəbəli 30 binadan ibarət 1512 ailəlik məhəllənin, 1200 şagird yerlik məktəb binasının, 280 yerlik uşaq bağçasının, inzibati binanın, klub-icma mərkəzinin və texniki infrastruktur obyektlərinin, Abşeron rayonu ərazisində doqquzmərtəbəli 35 binadan ibarət 1890 ailəlik məhəllənin, 1512 şagird yerlik məktəb binasının, 280 yerlik uşaq bağçasının, klub-icma mərkəzinin və texniki infrastruktur obyektlərinin, Samux rayonu ərazisində dördmərtəbəli 9 binadan ibarət 200 ailəlik məhəllənin, 144 şagird yerlik məktəb binasının, 50 yerlik uşaq bağçasının, inzibati binanın, klub-icma mərkəzinin, həkim məntəqəsinin və texniki infrastruktur obyektlərinin, Ağdam rayonunun Quzanlı qəsəbəsində 50 mənzilli beşmərtəbəli binanın, Lənkəran şəhərində 45 mənzilli beşmərtəbəli binanın, Füzuli rayonunda 95 fərdi yaşayış evindən ibarət olan yaşayış qəsəbəsinin inşası başa çatdırılıb.

Dövlət başçısı bundan sonra məcburi köçkünlər üçün evlərin ancaq işğaldan azad edilmiş torpaqlarda tikiləcəyini bildirib. Bəzi layihələrin davam etdiyini, bəzi layihələrin isə başa çatmaq üzrə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "İndi Füzuli rayonunda, Horadizdə və başqa bir kənddə evlər tikilibdir, onlar, əlbəttə ki, köçkünlərə veriləcək. Ancaq bundan sonra daha Bakı şəhərində, Gəncə şəhərində, Sumqayıt, Mingəçevir şəhərlərində və hər hansı bir başqa yerdə köçkünlər üçün evlər tikilməməlidir. Köçkünlər, yəni keçmiş köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək və biz bunu da xüsusi proqram əsasında həyata keçirəcəyik. Bunu hər kəs bilməlidir və istərdim ki, bunu hər kəs bilsin. Bu, çox ədalətli yanaşmadır".

Ölkə rəhbərliyinin göstərişinə əsasən, Füzuli rayonunda tiklimiş evlər məcburi köçkünlərə veriləcəkdir. Yaşayışa hazır olan 4687 mənzil isə ölkə rəhbərliyinin tapşırığının icrası üçün istifadə olunacaqdır.

# Şəhid ailələri və qazilər özünüməşğulluq proqramına qoşulublar

***11 saylı Ərazi Məşğulluq Mərkəzi filialının əməkdaşları tərəfindən Vətən müharibəsində İsmayıllı rayonundan şəhid olan hərbi qulluqçuların ailə üzvlərinin, eləcə də qazilərin yaşadıqları ünvanlarda görüşlər keçirilib və onların məşğulluq sahəsindəki ehtiyacları müəyyən olunub.***

AZƏRTAC xəbər verir ki, görüş keçirilən şəhid ailəsi üzvlərindən 11 nəfərin, qazilərdən isə 26 nəfərin aqrar təsərrüfat, avtomobillərin təmiri, tekstil, qadın gözəllik salonu, şirniyyat sexi və digər sahələri əhatə edən özünüməşğulluq proqramına qoşulması təmin olunub, qalanlarının isə istəklərinə uyğun məşğulluqlarının təmin edilməsi üçün işlər görülüb. Habelə, 2 nəfər qazi öz istəyinə uyğun olaraq sosial işlə təmin edilib.

# Azərbaycan qazının İtaliyaya çatması ilə bağlı paylaşım edilib

TAP-ın fəaliyyətə başlaması ilə Azərbaycan qazı İtaliyaya çatıb. Beləliklə, "Cənub qaz dəhlizi" fəaliyyətə başlayıb.

AZƏRTAC xəbər verir ki, bu ifadələr mövzu ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinin sosial şəbəkə üzərindən paylaşımında əksini tapıb. Paylaşımda yazılır: "Ölkəmizin Avropanın digər hissəsinin enerji təchizatının təhlükəsizliyinin təmin olunmasına verdiyi töhfədə yeni bir səhifə açıldı".

# Mədəniyyət Nazirliyi ilə BMT və BMT-nin ixtisaslaşmış qurumları arasında əməkdaşlıq istiqamətləri barədə müzakirələr aparılıb

**Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ilə Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi, BMT-nin İnkişaf Proqramının (BMTİP) Rezident nümayəndəsi Qulam İsakzai arasında sonuncunun xahişi ilə onlayn formatda görüş keçirilib.**




AZƏRTAC xəbər verir ki, görüşdə Mədəniyyət Nazirliyi ilə BMT və BMT-nin ixtsaslaşmış qurumları arasında əməkdaşlıq istiqamətləri barədə müzakirələr aparılıb.

Görüşdə Qulam İsakzai Azərbaycan ilə BMT arasında sıx əməkdaşlığın mövcud olduğunu, ölkəmizin BMT-nin müxtəlif fəaliyyətlərinə dəstək verdiyini vurğulayıb, gələcəkdə bu əməkdaşlığın eyni ruhda davam edəcəyinə əminliyini ifadə edib.

Nazir Anar Kərimov Azərbaycan ilə BMT arasında Mədəniyyət Nazirliyinin fəaliyyət sahələrində sıx əməkdaşlıq münasibətlərinin mövcudluğunu diqqətə çatdırıb. BMT-nin ixtisaslaşmış qurumu olan UNESCO ilə münasibətlərin inkişafı üçün dövlət başçısı İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olduğunu, ölkəmizin təşkilatın prinsip və dəyərlərinə daim sadiq olduğunu bildirərək, bu məsələdə təşkilatdan da adekvat yanaşmanın, ədalətli mövqenin gözlənildiyini ifadə edib. Lakin son dövrlərdə UNESCO-nun erməni işğalından azad edilmiş ərazilərə missiya göndərilməsi ilə bağlı təşkilatın anlaşılmaz açıqlamalarının Azərbaycan tərəfində məyusluq yaratdığını bildirib: "Halbuki bizim tərəfimizdən ilkin mərhələdə missiyanın həyata keçirilməsi üçün işğaldan azad edilən ərazilərdə təhlükəsizlik məsələlərinin həll edilməsinin vacibliyi, xüsusilə ərazilərin minalardan təmizlənməsi prosesinin və iqlim vəziyyətinin əlverişli olmadığı diqqətə çatdırılmışdır".

Q.İsakzai UNESCO tərəfindən onunla da müəyyən təmasların olduğunu bildirərək missiya ilə bağlı Azərbaycan tərəfinin mövqeyinə aydınlıq gətirilməsini xahiş edib.

Nazir A.Kərimov bildirdi ki, son 30 ildə işğal altında qalan ərazilərdəki mədəni irsin monitorinqi üçün missiyanın həyata keçirilməsi ilə bağlı Azərbaycan UNESCO-ya dəfələrlə müraciətlər ünvanlayıb, lakin təəssüf ki, bu müraciətlər cavabsız qalıb. Bu missiyaya imkan verilməməsinə görə UNESCO tərəfindən Ermənistana bir çağırış və ya bu haqda bir bəyanat verilməyib.

Təəssüflə qeyd edilməlidir ki, hazırkı müzakirələr fonunda UNESCO tərəfindən Azərbaycanı əsassız olaraq günahlandıran açıqlamaların verilməsi təşkilatın qərəzsizliyini və öz nizamnaməsinə uyğun tərəfsiz yanaşmasını kölgə altına salır.

A.Kərimov Azərbaycan tərəfinin həmin ərazilərə monitorinq missiyasının göndərilməsində hamıdan daha çox maraqlı olduğunu, lakin həmin missiyanın ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhəd toxunulmazlığına, eləcə də beynəlxalq hüququn digər prinsiplərinə hörmət çərçivəsində, mənşəyinə və dini xarakterinə heç bir ayrı-seçkilik qoyulmadan bütün abidələrin və mədəniyyət obyektləri üzərində təşkilini dəstəkləyir: "UNESCO tərəfindən bu kimi açıqlamaların verilməsi bizim cəmiyyətimizdə ciddi narazılıq yaradır ki, bu da təəssüflər olsun, təşkilatın imicini zədələyir. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi missiyanın parametrlərini əhatə edən sənədin layihəsinə dair öz təkliflərini hazırlayıb və bu sənəd çox yaxın zamanda UNESCO Katibliyinə təqdim ediləcəkdir".

A.Kərimov Q.İsakzainin BMT Rezident Əlaqələndiricisi qismində fəaliyyətinin Azərbaycan-BMT münasibətləri kontekstində önəmli olduğunu qeyd edib və onun azad edilmiş ərazilərdə vəziyyəti qiymətləndirərək BMT qurumlarına olduğu kimi çatdırılmasında böyük rol oynadığını söyləyib.

Q.İsakzai ölkəmizin mövqeyini anlayışla qarşıladığını və 44 günlük müharibə ərzində baş verən hadisələr və azad edilmiş ərazilərdə real vəziyyət haqqında BMT qurumlarına obyektiv məlumatlar çatdıracağına davam edəcəyini bildirib.

# Vaqif DƏRGAHLI: "Azərbaycanın üç şəhərində Türkiyənin aviasiya hərbi bazalarının qurulacağı barədə yayılan xəbərlər həqiqəti əks etdirmir"

Bir sıra xarici media orqanlarında ölkəmizin üç şəhərində Türkiyənin aviasiya hərbi bazalarının qurulacağı barədə xəbərlər yayılıb.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı yayılan bu məlumatların həqiqəti əks etdirmədiyini bildirib.

Vaqif Dərgahlı qeyd edib ki, Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsi siyasətindən kənardır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və 2019-2022-ci illər üçün bu hərəkatın sədridir.

# Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti qürur mənbəyimizdir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev fəxrlə söyləyib: "Əlbəttə, muğam sənəti bir neçə ölkədə mövcuddur, ancaq mən hesab edirəm ki, muğam sənətinin mərkəzi məhz Azərbaycandır. Təkrarolunmaz bu sənət bu gün yaşayır, biz bu sənəti yaşadırıq. Heydər Əliyev Fondunun xətti ilə muğam sənətinin dünyada təbliği istiqamətində çox böyük işlər görülüb. Çox şadam ki, bizim gənclərimiz də muğam sənətinə böyük maraqla yanaşırlar. Bu, çox təqdirəlayiq bir haldır. Çünki bəzi hallarda gənclər daha çox populyar musiqiyə üstünlük verirlər, yəni bəzi hallarda xarici musiqiyə üstünlük verirlər. Mən çox şadam ki, bizim gənclərimizin mütləq əksəriyyəti milli incəsənətimizə, musiqimizə bağlı olan insanlardır. Əlbəttə ki, bizim tanınmış muğam ustaları gənc nəslin yetişdirilməsində öz rolunu oynayırlar. Bildiyiniz kimi, mənim sərəncamımla bir neçə muğam mərkəzi yaradılmışdır - Bakı şəhərində, Ağdam və Füzuli rayonlarında, digər rayonlarda. İndi isə bu muğam mərkəzləri artıq işğaldan azad edilmiş torpaqlarda da yaradılacaqdır".

Prezident İlham Əliyev təkrarolunmaz aşıq sənətindən də söz açıb. Bildirib ki, haqlı olaraq biz aşıq sənətini sırf Azərbaycan sənəti kimi qəbul edirik və aşıq sənətini dünyada təbliğ edirik. O, milli musiqimizin çox zəngin olduğunu, geniş auditoriya cəlb edə bildiyini söyləyib.

Azərbaycan xalçaçılıq sənəti ilə də dünyada tanınır. Dövlət başçısı açıqlayıb ki, dünyada xalçaçılıq sənəti ilə məşğul olan ölkələrin sayı o qədər də çox deyil, onların arasında Azərbaycan xalçalarının xüsusi yeri vardır. Xalçalarımızın, xalça məktəblərinin müxtəlifliyinin bizim mədəni zənginliyimizi göstərdiyini diqqətə çatdıran Prezident İlham Əliyev bu sənətə göstərilən qayğıdan da danışıb. İllər öncə muğam sənətimizə, eləcə də xalçaçılığa olan laqeyd münasibət bu sahələrin inkişafına mane olur, yavaş-yavaş unudulmasına yol açırdı. Dövlət başçısı o vaxtlar yaranmış bir problemi də xatırladıb: "Gənclər xalçaçılıqla məşğul olmağa həm həvəsli deyildilər, həm də ki, imkanları yox idi. Biz bu imkanları yaratdıq. Xalçaçılıq sənəti əbədi yaşamalıdır".

Azərbaycanın memarlıq əsərləri dünya səviyyəsində məşhurdur və UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınıb. Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və digər memarlıq abidələrimiz Azərbaycan mədəniyyətinin böyüklüyünün, möhtəşəmliyinin nümunəsidir. Sevindiricidir ki, ölkəmizdə son illər ərzində də dəyərli müasir memarlıq əsərləri yaradılıb.

Azərbaycanda dini dəyərlər hər zaman yüksək tutulur. Son illər dövlət başçısının göstərişi ilə dini abidələrimiz simasını qorumaq şərtilə əsaslı təmir olunub, bir çoxları yenidən tikilib. Prezident İlham Əliyev deyib: "Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi ölkəmizdə yerləşir, 743-cü ildə inşa edilib, mənim göstərişimlə faktiki olaraq yenidən qurulub. Yaxud da ki, xristian dininə mənsub olan abidələr, alban kilsələri, Kiş kilsəsi, Xudavəng kilsəsi. Artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, bizim udi qardaşlarımıza qaytarılıbdır. Baxmayaraq ki, ermənilər bunun həm adını dəyişdirdilər, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu erməniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Bizim udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur".

Ötən il azərbaycanlıların yurd həsrətinə son qoyulub. 44 gün davam edən Vətən müharibəsində qazandığımız zəfərlə otuz ilə yaxın davam edən erməni işğalı başa çatıb. Ancaq erməni işğalçıları tərəfindən həmin yerlər illər boyu talan edilib, evlərimiz, memarlıq nümunələrimiz dağıdılıb. Yerləyeksan edilən tikililər arasında Azərbaycan xalqının mədəni sərvəti olan tarixi abidələrimiz, məscidlərimiz də var. İşğaldan qurtulmuş yerlərimizdə həyat canlandıqca bu sahədə də bərpa, tikinti işlərinə başlanılacaq.

Hazırda bütün dünya COVID-19 bəlası ilə mübarizə aparır. İlham Əliyev ümid etdiyini bildirib ki, bu il peyvənd tətbiq olunandan sonra pandemiya yavaş-yavaş yoxa çıxacaq. Bundan sonra həyatımız yenidən öz axarına düşəcək. Azərbaycan mədəniyyətinin dünyada təbliğ olunması üçün müxtəlif tədbirlər həyata keçiriləcək. Yenidən müsabiqələr, festivallar təşkil olunacaq. Prezident açıqlayıb ki, dağıdılmış ərazilərdə mədəni obyektlərin, mədəniyyət ocaqlarının bərpası başlıca vəzifələrdən biridir: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

Prezident İlham Əliyev bir zamanlar ənənəvi olan, son illər erməni işğalı nəticəsində isə keçirilməyən mədəni tədbirlərin də müjdəsini verib. O, yeni təyin etdiyi mədəniyyət nazirinə bu məsələlərlə bağlı da tapşırıqlarını çatdırıb: "Şuşada Vaqif poeziya günləri bərpa edilməlidir. "Xarıbülbül" festivalı bərpa olunmalıdır. İndi Şuşaya yeni yol çəkilir. Düzdür, bu yol çox çətin relyefi olan ərazidə çəkilir. Amma biz buna nail olacağıq. Planlaşdırın, bu il bu iki tədbir Şuşa şəhərində keçirilməlidir - "Xarıbülbül" festivalı və Vaqif poeziya günləri".

Azərbaycan üçün yeni bir dövr başlayır. Bütün sahələrdə yeni işlər planlaşdırılır. Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Füzulidə beynəlxalq aeroport tikiləcək. Prezident açıqlayıb ki, indi yerlər seçilir, minalardan təmizləmə işləri aparılacaq.

Prezident İlham Əliyev azad edilmiş torpaqlarda bütövlükdə dağıntıların siyahıya alındığını deyib: "Bu dağıntıları törədənlərə qarşı biz hüquqi müstəvidə öz addımlarımızı atacağıq".

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# «YAŞAT» Fondunun portalı istifadəyə verilib




**Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun yashat.gov.az portalı istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən yaradılan portalın məqsədi fonda müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığı təmin etmək, ianə etmək imkanlarını daha da genişləndirməkdir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev yanvarın 8-də keçirilən brifinqdə deyib.

Portal haqqında məlumat verən Ü.Mehdiyev qeyd edib: "Portalın "Haqqımızda" bölməsində fondun yaradılması məqsədi, qanunvericilik və Himayəçilik Şurasının tərkibinə dair məlumatlar yerləşdirilib. Vəsaitlərin xərclənməsi haqqında geniş məlumatın əks olunduğu "Hesabatlar" bölməsində dəstək göstərilənlər, xərclənmiş vəsaitlər və edilən ianələr haqqında ətraflı hesabatlar əks olunub. "Faydalı" bölməsi vasitəsilə isə ən çox verilən suallar və cavablarla tanış olmaq mümkündür. "Onlayn ianə" düyməsi vasitəsilə ianə etmək imkanı yaradılıb.

"ASAN xidmət"in bütün rayonlar üzrə ayrılmış qrupları tərəfindən şəhid ailələrinə dair müvafiq məlumatlar tam toplanıb. Vətən müharibəsində yaralananlarla bağlı isə portalın "Daxil ol" bölməsində qeydiyyatdan keçib, əlilliyi təsdiq edən məlumat və sənədləri qeyd edərək "müraciət et" bölməsinə keçid əldə etmək mümkündür. Bu bölmədə tələb olunan məlumatları yerləşdirmək və Azərbaycan Respublikası Prezidentinin Fərmanında öz əksini tapan istiqaməti qeyd etməklə həmin şəxslərin müraciətləri tamamlanır.

İlkin mərhələdə "YAŞAT" Fondu Vətən müharibəsinin şəhid ailələrinin və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətlərini qəbul edəcək. Birinci Qarabağ müharibəsi və digər dövrlərdə şəhid olanların ailə üzvləri və əlilliyi müəyyən olunmuş şəxslər isə mart ayından etibarən yashat.gov.az portalında qeydiyyatdan keçə biləcəklər.

Qismən görmə məhdudiyyətli şəxslərin portaldan istifadəsini daha da asanlaşdırmaq məqsədilə portalın yuxarı sağ küncündə "Rəqəmsal müyəssərlik" düyməsi yerləşdirilib. Həmin düyməyə klik etməklə portal interfeysinin rənginin tənzimlənməsi, daha rahat görünməsi üçün kursorun və mətnlərin böyüdülməsi və digər bir sıra imkanlar mövcuddur.

Qeydiyyat zamanı yaranan çətinlikləri aradan qaldırmaq suallara aydınlıq gətirmək məqsədilə fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

Eyni zamanda "YAŞAT" Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondu yaradılıb. Dekabrın 9-dan "YAŞAT" Fondunun təşkili üçün ciddi addımlar atılıb. Bank hesabları açılıb. Bütün rayonlar üzrə "ASAN xidmət"in əməkdaşlarından və könüllülərdən ibarət qruplar formalaşdırılıb. Həmin qruplar iki həftə ərzində 2706 şəhidin 11 min 192 ailə üzvü və 81 ağır yaralı ilə görüşlər keçiriblər. Onların bütün sosial problemlərinin elektron qaydada qeydiyyatı aparılıb. Ümumilikdə, 1483 ailə öhdəliyə götürülüb ki, onların problemlərinin həlli üçün ödənişlər edilsin. Bu, qəbul edilən müraciətlərin 55 faizini təşkil edir. Həmin şəxslərin problemlərinin həlli üçün "YAŞAT" Fonduna ianə edilən vəsaitlər xərclənəcək. Vəsaitin 37.70 faizi məişət şəraitinin yaxşılaşdırılması, 37.40 faizi tibbi xərclərin ödənilməsi, 16.55 faizi borc öhdəliklərinin qarşılanması, 1.33 faizi təhsil xərclərinin ödənilməsi, 7,02 faizi digər ehtiyaclara xərclənəcək.

"Bildiyimiz kimi, "YAŞAT" Fondunun Əsasnaməsinə görə, əsas dörd istiqamət üzrə problemlər həll olunur: məişət şəraitinin yaxşılaşdırılması, tibb xərclərinin ödənilməsi, borc öhdəliklərinin qarşılanması və təhsil xərcləri. Digər məsələlər də var ki, məsələn, işlə təmin olunma, bununla bağlı saytımızda xüsusi "İşaxtaran" bölməsi olacaq. Orada işlə təmin olunmağa ehtiyacı olan şəhid ailələrinin üzvləri və müalicə prosesi başa çatan müharibə əlilləri ilə bağlı məlumatlar olacaq və şirkətlər, qurumlar portaldakı həmin bölmə vasitəsilə ixtisasa uyğun olaraq onları işə götürə biləcəklər", - deyə Ü.Mehdiyev qeyd edib.

Agentliyin sədrinin sözlərinə görə, bu günə qədər 96 ödəniş həyata keçirilib. Ehtiyacların təmin olunması üçün zəruri məbləğ 920 min 72 manat 14 qəpik olub. "YAŞAT" Fondu tərəfindən 883 min 278 manat 49 qəpik, aidiyyəti təşkilatlar tərəfindən 36 min 793 manat 65 qəpik qarşılanıb.

❖ ❖ ❖

İlkin mərhələdə "YAŞAT" Fondu Vətən müharibəsinin şəhid ailələrinin və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətlərini qəbul edəcək. Birinci Qarabağ müharibəsi və digər dövrlərdə şəhid olanların ailə üzvləri və əlilliyi müəyyən olunmuş şəxslər isə mart ayından etibarən yashat.gov.az portalında qeydiyyatdan keçə biləcəklər.

Ü.Mehdiyev bildirib ki, mart ayına qədər hələ ki, "YAŞAT" Fondu 2800-dək Vətən müharibəsi şəhidinin ailəsi, eyni zamanda əlillik statusu alacaq yaralıların problemləri ilə məşğul olacaq. Mart ayından sonra isə fond tərəfindən 2020-ci ilə qədər şəhid olanların ailələri və Qarabağ əlillərinə də yardım edilməsi nəzərdə tutulub".

# "YAŞAT" Fonduna 8110 SMS vasitəsilə ianə etmək imkanı yaradılıb

**Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən yaradılan "YAŞAT" Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb. Bütün mobil operatorlardan 8110 qısa nömrəsinə SMS göndərməklə fonda 1 AZN-dən 50 AZN-dək ianə etmək mümkündür. SMS-in mətnində 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla müvafiq olaraq, 1AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN ianə etmək olar.**




SMS-si göndərdikdən sonra vətəndaşa ödənişin statusu ilə bağlı cavab gəlir.

***Uğurlu ödəniş edildikdə*** - Hörmətli abunəçi, siz "YAŞAT" Fonduna 20 AZN uğurla ianə etdiniz. Qələbəni bizə yaşadanları birlikdə Yaşadaq! Digər xidmətlərdən rahatlıqla istifadə etmək üçün zəhmət olmasa balansınızı artırın.

***Balansda kifayət qədər məbləğ olmadıqda*** - Hörmətli abunəçi, balansınızda kifayət qədər məbləğ yoxdur. "YAŞAT" Fonduna ianə etmək üçün balansınızı artırmağınızı xahiş edirik.

***Sistemdə təkmilləşdirmə işləri aparıldıqda və ya problem olduqda*** - Hörmətli abunəçi, sistemdə təkmilləşdirmə isləri aparıldığından "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Daha sonra təkrar yoxlamağınız xahiş olunur.

***Düzgün ödəniş məbləği seçilmədikdə*** - Hörmətli abunəçi, göndərdiyiniz kod yanlışdır. "YAŞAT" Fonduna ianə etmək üçün 1, 3, 5, 10, 20, 50 məbləğlərindən birini seçməklə ödəniş edə bilərsiniz.

***Korporativ abunəçi olduqda*** - Hörmətli abunəçi, siz korporativ abonent olduğunuzdan "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Fərdi abunə nömrəsindən istifadə etməyiniz tövsiyə olunur.

Bununla yanaşı, "YAŞAT" Fonduna onlayn formatda "ASAN Ödəniş" vasitəsilə dəstək olmaq şəraiti yaradılıb. Bunun üçün vətəndaşlar **asanpay.az** portalında "Ən populyar ödənişlər" bölməsində ilk sırada olan "YAŞAT" Fondu bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

Həmçinin fonda bank hesabları və ödəmə terminalları vasitəsilə də ianə etmək mümkündür.

Bank rekvizitləri ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz:
**http://vxsida.az/az/annouces/1493**

SMS ianə ilə bağlı daha ətraflı məlumat üçün təlimat videosu:
**https://youtu.be/YN4yCBXMY40**

# Umayra TAĞIYEVA: "Ölkə üzrə yeddigünlük hava proqnozunu öyrənmək mümkün olacaq"

**Bu ilə yeniliklərlə başladıq. Belə ki, proqnozlara əlçatanlığı təmin etmək üçün bu gündən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin saytında "Meteo.az" bölməsinə daxil olmaqla hava haqqında məlumatları daha geniş formatda əldə etmək mümkündür.**

AZƏRTAC xəbər verir ki, bunu "Ekspert saatı"nda Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva deyib. Onun sözlərinə görə, burada məqsəd ondan ibarətdir ki, istənilən vətəndaş paytaxt, eləcə də respublikanın bütün bölgələri üzrə 7 günlük proqnozları əldə edə bilsin. Proqnozların etibarlı olması üçün bütün səylər göstəriləcək.

"Meteo.az" bölməsində səsli mesajlar yayımlanacaq, fermerlər üçün faydalı olan aqrometeorolji məlumatlar yerləşdiriləcək. Meteohəssas insanlar üçün ayrıca bölmə nəzərdə tutulub və orada tibbi-meteoroloji proqnozlar əksini tapacaq. Bununla yanaşı, ölkədə gözlənilən hər hansı anomal hidrometeoroloji hadisələr barədə xəbərdarlıq bölməsi də nəzərdə tutulub. Burada dünya təcrübəsində qəbul olunan rəngli kodlarla, eyni zamanda rəqəmlər və mətnlər vasitəsilə gözlənilən təhlükəli hidrometeoroloji hadisələr əhaliyə çatdırılacaq", - deyə U.Tağıyeva qeyd edib.

# Qəhrəmanlıq abidəsi - “Vətən müharibəsi - 44 gün”

**Müzəffər Azərbaycan Ordusu Vətən müharibəsində misilsiz rəşadət göstərdi. 44 gün ərzində gərgin döyüş meydanında düşmənin hərbi birləşmələrini darmadağın etdi. Nəticədə otuz ilə yaxın davam edən erməni işğalına son qoyuldu, Vətənin ərazi bütövlüyü təmin edildi.**




Elə müharibənin ilk günündə - 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev doğma xalqına müraciət etdi. Dövlət başçısı Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutduqları, mülki əhali və hərbçilərmiz arasında itkilərin, yaralıların olduğu barədə məlumat verdi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük əzmlə, sonsuz inamla Ermənistanın təxribatı nəticəsində başlanan müharibədə zəfərin bizim olacağını söylədi: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

O anlardan başlayaraq Azərbaycan xalqı döyüş meydanlarından gələn qələbə xəbərlərini gözlədi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hər çıxışı, xalqa hər bir müraciəti zəfərimizin müjdəsi oldu.

Bu böyük tarix professor Teymur Əhmədovun “Vətən müharibəsi - 44 gün” adlı kitabında əksini tapıb. “Respublika” qəzetinin xüsusi buraxılışı olan bu kitabda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsi dövründə mütəfəkkir dövlət xadimi, “Dəmir yumruq” əməliyyatının keçirildiyi anlarda mübariz xalq sərkərdəsi kimi xalqa müraciətləri, Zəfər paradında çıxışı toplanıb.

Azərbaycan Ordusunun öz doğma vətəninin azadlığı uğrunda döyüşdüyü, Ermənistanın işğalçılıq siyasəti hər kəsə məlum oldu. Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılmasında böyük əhəmiyyət daşıyan müsahibələri də “Vətən müharibəsi - 44 gün” adlı kitabda yer alıb.

“Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da”. Kitabda əksini tapan bu sözlər isə Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradındakı çıxışındandır. Bu sətirləri oxuyan hər bir oxucu inanır ki, Azərbaycan dövləti, Azərbaycan xalqı hələ bundan sonra da çox xoş günlər görəcək, bütün sahələrdə böyük tərəqqiyə nail olacaq.

“Vətən müharibəsi - 44 gün” kitabı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqını qələbəyə yetirən tarixi günlərdə gördüyü böyük işləri bir daha gözlərimizin önünə gətirir. Kitabda qeyd olunuğu kimi: “Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları siyasətlə maraqlanan hər kəsə gərəkli, stolüstü ensiklopedik kitabı oxuyun. Bu, millətimizin başını uca edən dəyərli qəhrəmanlıq abidəsidir”.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# 10 noyabr Bəyanatı erməni xalqının xilası yoludur

*Əvvəli 1-ci səh.*

Bu ifadənin mənası odur ki, erməni xalqı döyüşmək istəmir və ordu ilə xalq arasında uçurum yaranıb. Uçurumun bir tərəfində 30 illik müharibənin əvvəlindən axırına kimi erməni faşist elitası, o cümlədən səfərbərliklə məşğul olan qurumlar - “bal tutub barmaq yalayanlar”, o biri tərəfində isə övladlarını Dağlıq Qarabağa yollamaq istəməyən, deyilən məbləği ödəməyə hazır olan əsgər valideynləri dayanıb.

Ermənistanın siyasi və hərbi elitası elə bilirdi ki, itkilər haqqında məlumatları gizlədikcə səfərbərliyə davam edərək həm döyüşdə qalib gələcək, həm də əməlli-başlı pul qazanacaqlar. Lakin ordudan yayınmağın qiyməti bahalaşdıqca, ölənlərin və itkin düşənlərin sayı elə sürətlə artdı ki, uçurumun hər iki tərəfində duranlar dalana dirənib toqquşdular. Əsgər analarının ciddi narazılıqları, kütləvi çıxışları Yerevandakı arası kəsilməyən mitinqlərin aparıcı qüvvəsinə çevrildi.

Dekabrın 22-də erməni KİV-ində dərc olunan məlumatda bildirilir ki, fərarilik və hərbi əmrlərin yerinə yetirilməsindən imtinaya görə 882 cinayət işi qaldırılmışdır. İşğalçı ordunun əsgərlərinin hərbi cinayətlərinin “çələngi rəngarəngdir”: hərbi xidmət dövründə əmrlərin yerinə yetirilməməsi, fərarilik, hərbi xidmətə xitam verilməsi və s. Yüzlərlə əsgər ittiham olunur, silahlarını atıb döyüş mövqelərini tərk edən hərbçilər axtarılır.

Döyüşlərin ən qızğın vaxtlarında nəinki sıravi əsgərlərin, hətta yüksəkçinli hərbçilərin, generalların belə, döyüş mövqelərindən qaçması barədə hər gün yayılan xəbərlər yəqin ki, hamının yadındadır. Belə olan halda Paşinyanın kapitulyasiya sənədinə qol çəkməkdən başqa çıxış yolu qalmamasını başa düşmək çətin deyil.

Bir qədər tarixi geri vərəqləyək. Oktyabrın 14-də erməni KİV-i işğalçı ordunun geri çəkilməsini, mövqeləri atıb qaçmasını gələcək qələbəni təmin edəcək taktiki gedişlər kimi təqdim edirdi. Dil çaşar - düzünü deyər. Qondarma rejimin “lider”i Araik Arutunyan da elə həmin günlər orduda xəyanətin və fərariliyin baş alıb getdiyini boynuna almışdı: “Biz geri çəkilə bilmərik, fərarilik xəyanət deməkdir”. Arutunyanın nə deməsi maraqlı deyil, maraqlı odur ki, işğalçı dövlətin bütün siyasi elitası müharibənin əvvəlindən axırınadək hər gün artan fərarilikdən və xəyanətlərdən danışırdı.

Bu gün işğalçı dövlətin bir-birini ittiham edib məşhər ayağına çəkən siyasi partiyaları çıxış yolunu bütün günahları Paşinyanın belinə yükləməkdə görürlər. Amma məsələ bundadır ki, işğalçı ordunu və onun yenilməzliyi haqqında əfsanəni yaradanlar Sarkisyanla Köçaryan idilər. Paşinyan, sadəcə, faşist ambisiyalarının küyünə qurban gedib.

Diasporun və erməni xalqının pullarını mənimsəyib özünə sərvət toplayan erməni hərbi xuntası müharibə başlayan kimi anladı ki, 2020-ci illə 1990-cı illərin “həna”sı eyni deyilmiş. Öncə insan resurslarının kəskin çatışmazlığı özünü büruzə verdi. Ağır itkilər və orduda baş alıb gedən fərarilik erməni hərbi maşınının paslı dəmir-dümürdən, ordunun döyüş ruhunun isə sabun köpüyündən ibarət olduğunu ortaya qoydu. Erməni əsgərləri Azərbaycan Ordusunun cəngavərlərinin səsini eşidəndə belə, Prezidentimizin təbirincə desək, nələri vardısa atıb qaçır, siçan deşiyi axtarırdılar. Bizim qəhrəman övladlarımızın döyüş təcrübəsi, bacarığı, ölümün, güllənin üstünə yeriməsi onları vahiməyə salırdı. Ermənilər anlamırdılar ki, o necə olur, vurduqları Azərbaycan əsgərləri yıxılır, amma yenidən ayağa durub onların üstünə atılır. Onlar dəfələrlə qorxu içində etiraf edirdilər ki, üstlərinə hücum çəkib gələnlərin insan olduqlarına inanmaq mümkün deyil.

Erməni hərbçiləri əsgərlərini it kimi səngərdə zəncirləyirdilər, cəbhədən Ermənistana gedən yollara cəza dəstələri düzüb fərariləri, ordudan qaçanları güllələyirdilər. Amma bütün bunlara baxmayaraq, 10 mindən artıq erməni əsgəri döyüşdən qaça bildi. Əgər cəza dəstələri qaçanları atəşlə qarşılamasaydı, hamısı aradan çıxardı.

Ardıcıl məğlubiyyətlərdən, ağır itkilərdən və ruh düşkünlüyündən sarsılan erməni ordusu faşist ambisiyalarının güdazına getdi. Müharibə onu göstərdi ki, havadarlarının hesabına 28 il status-kvonu saxlayan düşmən ordusunun gücü ucuz və nağıldan başqa bir şey deyilmiş. Onların əsgərləri də, hərbi komandanlığı da dinc əhaliyə divan tutmaqla, döyüş bölgəsindən uzaqdakı şəhər və kəndlərimizə 20 mindən yuxarı raket atmaqla elə bilirdilər ki, əhalini qorxudub qaçırda və qalib gələ biləcəklər.

Nə qədər silah və sursatları gəldi, bütün erməni diasporu dünyanın hər yerindən muzdluları və terroristləri Dağlıq Qarabağa daşıdı. Faydası oldumu? Təbii ki, yox! Özləri etiraf edirlər ki, Ermənistanın baş prokurorluğu fərariliklə bağlı 3 minə yaxın cinayət işi açsa da, həqiqətdə onların sayı 10 mindən yuxarıdır.

Şuşada özünə villa tikən, Qarabağda müəssisələr yaradıb varlanan Araikin erməniləri Azərbaycan torpaqlarında ölməyə çağırması məzhəkədən başqa bir şey deyildi. Bu gün Yerevandakı əsgər analarına imkan verilsə, onu Şuşada tikdirdiyi villada ayaqlarından asarlar. Araik Azərbaycanda da cinayətkar kimi müqəssir kürsüsündə durmalıdır. Amma arsızcasına əsgər analarına deyir ki, Azərbaycan tərəfinə ölən əsgərlərlə bağlı müraciət edəcək. Qanmır ki, istənilən əsgər anası özü Azərbaycan tərəfinə müraciət etsə, dəstək alacaq. Əsas odur ki, sən qazdığın quyulara doldurduğun və güllələdiyin əsgərlərin yerini özün açıqlayasan. Sən döyüşçü deyilsən və törətdiyin cinayətlərdən toxunan möhkəm kəndirdən mütləq asılacaqsan.

Bu müharibədə Ermənistanın bütün hərbi strukturları darmadağın olundu. Hətta ermənilərin döyüşlərə atdığı təhlükəsizlik qüvvələrinin ən “yaxşı” nümayəndələri də məhv edildi. Ermənistanın iki elit hərbi hissəsinin döyüş bölgəsindən qaçması isə lətifəyə çevrilib.

Artıq o ordu məğlub edilib, yoxdur. Bu gün Yerevandakı kükrəmələr faşist rejiminin son çığırtılarına bənzəyir. Faşist ordusunun darmadağın edilməsi isə regionda sülhün və dinc yaşamaq istəyən sadə ermənilərin xilasıdır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Biz birlikdə güclüyük!

# Azərbaycan pandemiyaya qarşı çevik tədbirlər görür

*Əvvəli 1-ci səh.*

## Qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirilib

Tez bir vaxtda səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi isə pandemiyaya qarşı mübarizəni xeyli gücləndirib. Virusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunmasında vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsi baxımından böyük rol oynayan modul tipli xəstəxanalar inşa edilib. Ümumilikdə, respublikamızda 10-dan çox yeni müasir xəstəxana tikilib ki, bunun sayəsində virusa yoluxan xəstələr üçün 10 mindən çox çarpayı yeri yaradılıb.

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, eyni zamanda maska istehsalı müəssisəsinin açılması, yeni süni tənəffüs aparatlarının (ECMO) alınması təmin edilib, təcili tibbi yardım avtomobillərinin təminatı kimi mühüm əhəmiyyətli işlər həyata keçirilib.

Qısa zaman ərzində laboratoriyaların sayı 8 dəfə artırılıb. Qeyd edək ki, ötən müddət ərzində respublikamızda koronavirusun aşkarlanması üçün, ümumilikdə, 2 milyondan çox test aparılıb. Bu addımın atılması isə xəstəliyin erkən aşkarlanmasında və lokallaşdırılmasında müstəsna rol oynayır.

Paralel olaraq həkim çatışmazlığının qarşısının alınması istiqamətində mühüm işlər görülüb. Bəzi ölkələrlə bu sahədə əməkdaşlıq üçün operativ danışıqlar aparılıb, 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimlər dəvət edilib.

Görülən tədbirlərin nəticəsidir ki, indiyə qədər virusa yoluxan 200 mindən çox vətəndaşımız müalicə olunaraq sağalıb. Onu da bildirək ki, bu müddət ərzində koronavirus xəstələrinə qulluq edən həkimlərin maaşları artırılıb, əməkhaqlarının 3-5 misli həcmində maaş alırlar.



## Vəziyyət nəzarətdədir

Birbaşa ölkə rəhbərinin ciddi nəzarəti və tapşırıqlarına əsasən, pandemiyaya qarşı həyata keçirilən mühüm çevik və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısını alıb. Əminliklə demək olar ki, koronavirusla əlaqədar dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkəni böyük fəlakətdən qoruyub. Azərbaycan COVID-19-la mübarizəni bütün sahələrdə uğurla davam etdirən və müsbət nəticələr qazanan ölkələr sırasında yer alıb.

Yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatdakı müşavirədə Prezident İlham Əliyev də vurğuladı ki, ölkəmizdə pandemiya ilə bağlı vəziyyət tam nəzarətdədir: “Koronavirus, əlbəttə ki, bütün dünya üçün çox böyük sınaq idi. Hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxır. Vəziyyət tam nəzarətdədir. Operativ tədbirlər nəticəsində yeni xəstəxanalar tikildi, laboratoriyalar alındı. Həkimlər səfərbər olundu”. Vətəndaşlarımızın sağlamlığının qorunmasına yönəlmiş məqsədyönlü strategiya hətta beynəlxalq qurumlar tərəfindən də təqdir edilir. Ümumdünya Səhiyyə Təşkilatı bir neçə dəfə bu sahədə respublikamızda atılan addımlara yüksək qiymət verib, Azərbaycanın təcrübəsini digər ölkələrə nümunə göstərib.

## İqtisadiyyata 2,5 milyard manatdan artıq dəstək göstərilib

Dünya ölkələrinin də təcrübəsindən bəlli olduğu kimi, COVID-19 xəstəliyinin yayılmasının qarşısının alınması istiqamətində görüləcək ən effektiv vasitələrdən biri də sərt məhdudiyyətlərin tətbiqidir. Buna görə ölkəmizdə də yoluxma səviyyəsi nəzərə alınaraq virusun yayılmasının qarşısının alınması məqsədilə bir sıra mühüm addımlar atılıb, ümumi karantin rejimi yanvarın 31-dək uzadılıb. Ayın 18-dək isə sərtləşdirilmiş karantin tədbirləri tətbiq edilib.

Təbii ki, bu hallar həm iqtisadiyyatda, həm sosial sferada, həm də insanların davranışlarında məhdudiyyətlərə səbəb olub. Buna görə də pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilir. Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara maddi və sosial yardımlar edilir.

Bütün mənbələr və maliyyə imkanları nəzərə alınaraq iqtisadiyyata, ümumilikdə, təqribən 2,5 milyard manatdan artıq dəstək göstərilib. Xüsusilə işsiz və iş yerini müvəqqəti itirmiş şəxslərə dörd dəfə 190 manat birdəfəlik ödəmə verilib. Bu da toplam olaraq 450 milyon manat vəsait deməkdir.

Koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə Prezidentin fərmanı ilə yaradılmış xüsusi fonda isə 114 milyon manatdan artıq vəsait yığılıb.

## Əhalinin təhlükəsizliyi və sağlamlığı prioritetdir

Yaxın dövrdə ölkəmizə COVID-19-a qarşı vaksinin gətiriləcəyi də gözlənilir. Yanvarın 6-da keçirilən videoformatdakı müşavirədə Prezident İlham Əliyev dedi: “Ümid edirik ki, peyvənd bu ay ərzində Azərbaycana gətiriləcək. Hər halda bütün kontraktlar imzalandı. Peyvəndin bir qədər gec gətirilməsi bizdən asılı deyil. Ondan sonra insanlar kütləvi qaydada bu peyvənddən istifadə edəcək və canımız bu xəstəlikdən qurtaracaq”.

Göründüyü kimi, respublikamızda qlobal böhranın aradan qaldırılması istiqamətində görülən işlər infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin və sağlamlığının etibarlı təmininə yönəlib.

Vətəndaşlar da qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, sadə gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdırlar.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***






# 2021-ci il Ermənistan üçün dərin sosial-iqtisadi problemlərlə başlayıb

*Əvvəli 1-ci səh.*

2020-ci ildə müharibədəki məğlubiyyət Ermənistanın beynəlxalq imicinə də ciddi ziyan vurdu. Artıq beynəlxalq investorlar Ermənistanla əməkdaşlıqdan qaçırlar. “Varelq.am” saytı yazır ki, müharibədən məğlub çıxan ölkədən birbaşa xarici sərmayə gözləmək sadəlövhlükdür. Üstəlik, qeyri-müəyyənlik, təhlükəsizlik üçün təhdidlər mövcud investorları da qorxuda bilər. Bəziləri hətta öz kapitallarını Ermənistandan geri çəkə bilər.

“America konsaltinq” şirkətinin direktoru Tiqran Crbaşyan deyib ki, təhlükəsizlik riskləri, ölkədə hökm sürən siyasi qeyri-müəyyənlik, iqtisadi vəziyyətin pisləşməsi və Ermənistandan kapital axını yeni fəlakətlərə səbəb ola bilər. Bu, müharibədən, koronavirus pandemiyasından sonra baş verə biləcək ən böyük zərbədir. Qeyd olunur ki, böhranlı iqtisadi vəziyyətdə dövlət məcburən öz kapital qoyuluşlarını azaltmalıdır. Bu isə digər investorları ehtiyatlı olmağa sövq edəcək, investisiya aclığını artıracaq.

Beləliklə, müharibədən ağır itkilərlə çıxan Ermənistanı 2021-ci ildə çətin iqtisadi problemlər gözləyir. Mütəxəssislərin fikrincə, siyasi qeyri-müəyyənlik kontekstində ölkə iqtisadiyyatı ciddi geriləməyə gedir. Milli valyuta bu risklərə devalvasiya ilə “cavab verir”. Növbəti illərdə Ermənistan bu böhranın yaratdığı taktonik təkanların daha çox acısını hiss edəcək.

Ekspertlərin fikrincə, bu vəziyyət Ermənistan üçün olduqca faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən ölkənin ümumi daxili məhsulunda artım baş verməyəcək. Əksinə, böyük geriləmənin yaşanması tamamilə realdır. Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dollar və digər xarici valyutaların məzənnəsi bu il yüksələcək. Elə bu səbəbdən zəruri ərzaq mallarının qiyməti sürətlə artır. Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları yoxdur. Xaricdən köçürülən pulların miqdarı isə olduqca azdır.

Bu arada Ermənistanda əhalinin təbii qaza görə ödəniş edə bilməməsi “Qazprom”u narahat edib. “Qazprom Armeniya”nın baş direktoru Qrant Tadevosyan deyib ki, hələlik bu, şirkət üçün ciddi maliyyə problemi yaratmasa da, abunəçilər arasında qaza görə ödəməmə halları artıb ki, o da vəziyyəti ağırlaşdıra bilər. Xüsusən ötən ilin sonlarından qaz istehlakına görə ödəməmə halları çoxalıb. Belə ki, 2019-cu ilin noyabrına görə ev təsərrüfatlarının ümumi qaz xərclərinin 0,6 faiz ödənilmədiyi halda, bu göstərici 2020-ci ilin eyni dövrünə görə 6,6 faiz təşkil edib. Müəssisələrdə isə bu göstərici 1,1 faizdən 1,6 faizə yüksəlib.

Bütövlükdə, Ermənistan üçün 2021-ci il sosial-iqtisadi baxımdan kifayət qədər dərin problemlərlə başlayıb. Belə bir vəziyyətlə iqtisadçılar perspektivdə ölkəni heç bir iqitsadi uğurun gözləmədiyini bildirirlər.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Reza Deqati ARTE kanalında ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərdən danışıb

**Məşhur fotoqraf Reza Deqati Fransanın ARTE kanalının qonağı olub. O, verilişdə Qarabağın işğal altında olmuş torpaqlarında ermənilərin törətdikləri vəhşiliklər barədə məlumatları paylaşıb, həmin ərazilərdə çəkdiyi dağıntı şəkillərini göstərib.**

Verilişin aparıcısının təxribatçı mövqeyini cavablandıran Reza Deqati Fransa mediasının qərəzliliyini, bitərəfliyini qeyd edib. O deyib ki, Fransanın 80 jurnalist və fotoqrafı Ermənistana gedib bu münaqişəyə erməni mövqeyindən münasibət bildirir, Azərbaycana isə Fransadan jurnalist göndərilmir. Məşhur fotoqraf Fransanın aparıcı media qurumlarına bu münaqişəni işıqlandırmaqla bağlı müraciətlərinin cavabsız qaldığını diqqətə çatdırıb: “Münaqişə tərəflərindən biri media tərəfindən tamamilə “unudulub”. Buna mən şahidəm. Hər hansı bir münaqişə zonasına getməzdən əvvəl Fransanın böyük media qurumları ilə əlaqə saxlayır və onlara bildirirəm ki, münaqişə bölgəsinə gedirəm. Onlar mənimlə əməkdaşlıq edirlər. Ancaq Qarabağ münaqişəsi ilə bağlı böyük media qurumlarına zəng edib deyəndə ki, münaqişə zonasına gedirəm, heç bir media orqanı mənimlə əməkdaşlıq etmək istəmədi. Yəni mənə bu imkanı yaratmadılar. Halbuki Ermənistan tərəfdə Fransadan 80 jurnalist və fotoqraf var idi. Fransanın bütün media qurumları jurnalistlərini Ermənistana göndərmişdilər. Azərbaycan tərəfdə isə təkcə mən və mənimlə birlikdə yerli fotoqraflar idi”.

Reza Deqati bu münaqişəni 1992-ci ildən, yəni Birinci Qarabağ müharibəsi dövründən işıqlandırdığını bildirib. O, münaqişədə iki əsas məsələyə diqqət yetirdiyini qeyd edib: “Birincisi, mülki insanların iztirabı, çünki bütün münaqişələrdə olduğu kimi, mülki əhalinin iztirabını lentə alıram. Son 40 ildə bütün müharibələri çəkmişəm. Müharibə zamanı qadınlar və uşaqlar daha çox iztiraba məruz qalırlar. Onlar müharibənin əsl qurbanlarıdır. Qarabağ müharibəsi zamanı da bombardman edilən, Cenevrə konvensiyaları ilə istifadəsi qadağan edilmiş bombaların qurbanı olan azərbaycanlı mülki əhali idi.

İkinci məqam isə azad olunmuş ərazilərdir. Azərbaycanda bu sahədə iki ay yarım çalışdım. Kəndlər və şəhərlər tamamilə dağıdılıb. Digər müharibələr zamanı belə mənzərəni heç harada görməmişəm”.

Fotoqraf Ağdam şəhərinin dağıntılarını ekranda göstərərək deyir: “Dağıdılmış şəhərlərdən biridir. İndi ekranda gördüyümüz bu şəhər “Qafqazın Xirosiması”, “Ruhlar şəhəri” adlandırılır. Təsəvvür edin, şəhər tamamilə yer üzündən silinib və özü də məqsədli şəkildə. Bu şəhər müharibə zamanı və ya bombardmanla dağıdılmayıb. Bu dağıntı sistemli şəkildə törədilib: kəndlər, evlər, hər şey sistemli və məqsədli şəkildə dağıdılıb. Mən bunu heç yerdə görməmişəm”.

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# “AzerGold”un kollektivi ordu sıralarından tərxis olunmuş əməkdaşlarıyla görüş keçirib

**“AzerGold” QSC-nin kollektivi ordu sıralarından tərxis olunmuş həmkarları ilə görüşüb, Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş əməkdaşlarından biri olan baş leytenant Muxtar Qasımlının məzarını ziyarət ediblər.**



Füzuli rayonunun azad edilməsi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəmanımızın xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb. Həmçinin Çovdar Filiz Emalı Sahəsinin əməkdaşları Gəncə şəhər Şəhidlər xiyabanında dəfn edilən cəmiyyətin digər əməkdaşı baş leytenant Rauf Əsgərovun məzarını ziyarət edərək xatirəsini anıblar.

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, İdarə heyətinin sədri Zakir İbrahimov görüşdə hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən və qazanılan tarixi qələbənin əhəmiyyətindən danışıb. Vurğulanıb ki, müzəffər Ali Baş Komandanın hərbi və siyasi müstəvidə atdığı qətiyyətli addımlar, xalqımızın həmrəyliyi və ordumuzun hünəri sayəsində Azərbaycan düşmən üzərində tarixi zəfərə imza atıb.

İdarə heyətinin sədri xatırladıb ki, şəhid olmuş igid oğullarımızın sırasında “AzerGold”un qəhrəman əməkdaşları Muxtar Qasımlı və Rauf Əsgərov da var. Qeyd olunub ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə onların hər ikisi “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları, Rauf Əsgərov, həmçinin “Döyüşdə fərqlənməyə görə” medalı ilə təltif edilib”.



Zakir İbrahimov bildirib ki, “AzerGold” QSC-nin əməkdaşları kapitan Ruslan Muradov Xocavənd, Qubadlı və Şuşa isqamətlərində, baş leytenant Tələt Tağıyev Gədəbəyin müdafiəsində, əsgərlər Sərxan Abbasov, Şahin Ağacanov, Elmir Verdiyev, Sehran Əliyev Xocavənd, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa istiqamətlərində gedən döyüşlərdə fəal iştirak edərək nümunəvi xidmətləri ilə fərqləniblər. Sədr mənfur düşmənə qarşı igidliklə vuruşan əməkdaşları ilə, eləcə də bu mübarizədə qəhrəmancasına həlak olmuş şəhidlərlə qürur duyduğunu vurğulayıb.

Daha sonra cəmiyyətin döyüşlərdə iştirak etmiş əməkdaşları öz təəssüratlarını bölüşüb, keçdikləri döyüş yolundan bəhs ediblər. Bildirilib ki, Azərbaycan Ordusunun əzmkarlığı, ordumuzun ən müasir hərbi texnika ilə təmin olunması və şəxsi heyətin yüksək döyüş hazırlığı düşmənin məğlub edilməsinə öz layiqli töhfəsini verib.

# Yaralı vəziyyətdə 4 gün düşmənin atəşi altında, 50 gün isə komada qalan şəhid Saatmirzə Əzimov





**Siyəzən şəhərindən könüllü olaraq cəbhəyə yollanan Saatmirzə Əzimov Cəbrayıl, Füzuli və Xocavənd uğrunda şiddətli döyüşlərdə qəhrəmancasına savaşıb.**





AZƏRTAC xəbər verir ki, Aprel döyüşlərinin iştirakçısı olan Saatmirzə Vətən müharibəsi başlayan kimi hərbi komissarlığa gedərək cəbhəyə yollanmaq istədiyini bildirib. Döyüş təcrübəsinə malik könüllü düşmən üzərinə yeriyən həmlə qruplarında yer alıb. Onun yer aldığı hərbi birləşmələrimiz artıq Şuşa istiqamətində irəliləməyə başlamışdı. Qələbə üçün alışıb-yanan Saatmirzə Əzimov Xocavəndin Tuğ kəndində gedən savaşda ağır yaralanır. Dörd gün yaralı vəziyyətdə güllə yağışının altında qalan Saatmirzə Əzimov döyüş yoldaşları tərəfindən xilas edilsə də, komaya düşür. 50 gündən sonra isə şəhidlik zirvəsinə ucalır. Ailənin tək oğul övladı olan qəhrəman döyüşçü subay idi.

Şəhidin anası Xatirə Əzimova deyir ki, oğlu ilə danışanda heç vaxt harada olduğunu deməzdi: “Onunla sonuncu dəfə oktyabrın 24-də danışmışıq. Dedi, ana zəng vurub danışmağa vaxtımız olmur. Soruşdum ki, haradasan? Cavab verdi ki, yerimi deyə bilmərəm. Bir neçə gündən sonra xəbər gəldi ki, ağır yaralıdır. Bakıya xəstəxanaya gətirdilər. Bir həftədən sonra isə Mərkəzi Gömrük Hospitalında əməliyyat olundu. Altı saatlıq əməliyyat zamanı bədənindən 3 qəlpə çıxardılar. Bir qəlpə isə baş-beyin nahiyəsində olduğu üçün çıxarmaq mümkün olmadı...”

Saatmirzə Əzimov 1997-ci ildə Siyəzən şəhərində dünyaya göz açıb. Oktyabrın 17-də 23 yaşı tamam olanda hospitalda koma vəziyyətində idi.

“Mən qardaşımın balası ilə fəxr edirəm. Allah şəhidlərimizə rəhmət eləsin. O yüksək zirvə hamıya nəsib olmur. Məkanları cənnətdir. Fəxr edirəm ki, Vətənimiz bütövləşdi. Torpaqlarımız azad oldu. Allah Prezidentimizi qorusun! Onun sayəsində, onun siyasi iradəsi ilə biz bu qələbəyə nail olduq. Saatmirzə yaralananda hamımıza çox pis təsir etdi. Sonra hospitalda yatdı, 50 gün koma vəziyyətində qaldı. Ümid edirdik sağalacaq. Çox sağ olsun həkimlərimiz, əllərindən gələni etdilər. Amma Saatmirzənin yaraları çox ağır idi. Beyni zədələnmişdi”, - deyə şəhidin əmisi Zahid Əzimov bildirib.

Saatmirzə Əzimov həkimlərin səyinə baxmayaraq, komadan ayılmadı və dekabrın 17-də şəhidlik zirvəsinə ucaldı.

Atası Firuz Əzimov deyir ki, vətənpərvər oğul böyütmüşdü: “Tez-tez mənə sual verirdi ki, ata torpaqlarımız nə vaxta kimi düşmən tapdağında qalacaq? Cəbhəyə könüllü yazılanda da xəbərimiz olmayıb. Deyirdi, mən Qarabağda mütləq döyüşəcəyəm. O, Aprel döyüşlərində də iştirak etmişdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Saatmirzəni yaralı vəziyyətdə atəş altından çıxaran döyüş yoldaşı siyəzənli Fərid Ağamalıyev də cəbhəyə könüllü yollanmışdır.

“Vətən müharibəsinin ilk günlərindən Saatmirzə ilə döyüşlərə qatılmışıq. Şəhid qardaşımız Cəbrayıl, Füzuli və Xocavənd uğrunda döyüşlərdə fəal iştirak etdi. Saatmirzə Xocavənddə yaralandı. Yaralı vəziyyətdə 4 gün düşmənin nəzarət etdiyi ərazidə qalıb. Bizim qrup Xocavənddə strateji yüksəkliyi ələ keçirdikdən sonra yaralılarımızı və şəhidlərimizi ərazidən çıxara bildik. Mən Saatmirzəni görəndə vəziyyəti çox ağır idi. İlkin tibbi yardım göstərib ərazidən çıxardıq... Onunla döyüşlərdən qabaq həmişə söhbətləşirdik. Müharibədən sonrakı planlarını soruşurdum. Deyirdi ki, mən Vətən uğrunda şəhid olacağam”, - deyə Fərid Ağamalıyev bildirib.

Şəhid Saatmirzə Əzimov Siyəzən şəhər qəbiristanlığında dəfn olunub.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
### “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin Ciddi hesabat qəbzləri və ştrix kodları ilə təmin edilməsi üzrə
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | Ciddi hesabat qəbzləri və ştrix kodların satın alınması |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: LOT 1 600 manat məbləğində pul vəsaitini “ASAN Ödəniş” sistemi ilə bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *potensialı, maddi-texniki və kadr imkanları haqqında işçilərin siyahısı və məlumatları ətraflı əks etdirən arayış;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **01 fevral 2021-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **09 fevral 2021-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **10 fevral 2021-ci il saat 11:00-da** açılacaqdır.

Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:
Oktay İsmayılov - Tender komissiyasının üzvü,
Tel.: (+99412) 493-56-00, faks: (+99412) 493-00-37.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
### “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin istismar blankları və jurnalları ilə təmin edilməsi üzrə
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | İstismar blankları və jurnalları satın alınması |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:**
**LOT 1 üzrə 600 manat məbləğində pul vəsaitini “ASAN Ödəniş” sistemi ilə bank hesabına köçürməlidir:**

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *Potensialı, maddi-texniki və kadr imkanları haqqında işçilərin siyahısı və məlumatları ətraflı əks etdirən arayış;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **02 fevral 2021-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **10 fevral 2021-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **11 fevral 2021-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:
Oktay İsmayılov - Tender komissiyasının üzvü,
Tel.: (+99412) 493-56-00, faks: (+99412) 493-00-37.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 13 noyabr 2020-ci il tarixli buraxılışında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına xüsusi çəkmələrin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların tender təklifləri formal tələblərə və tələb olunan mallar müəyyən olunmuş texniki tələblərə uyğunsuzluğu halları aşkar olunduğu üçün tender proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

## Beynəlxalq aləm

### Türkiyə yeni Türksat 5A rabitə peykini orbitə çıxardı

Türksat 5A beşinci nəsil geostasionar telekommunikasiya peyki ABŞ-ın Kanaveral (Florida) burnundakı kosmosdromdan orbitə uğurla çıxarılmışdır. Start dünən Türkiyə vaxtilə saat 05:15-da olub.

Türkiyənin nəqliyyat və infrastruktur nazirinin müavini Ömər Fatih Sayan, Türksat AŞ şirkətinin baş direktoru Cenk Şən və digərləri Space X şirkətinin Falcon 9 daşıyıcı raketinin Kanaveral mərkəzindən buraxılmasını izləyiblər. Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil İsmayıloğlu Ankarada bildirib ki, peykdən ilk siqnal startdan 35 dəqiqə sonra alınıb. Onun dediyinə görə, növbəti dörd ay ərzində testlər keçiriləcək, bundan sonra Türksat 5A tam gücü ilə işləməyə başlayacaq.

Türksat 5A ilə birlikdə Türkiyənin aktiv rabitə peyklərinin ümumi sayı dördə çatmışdır.

### KİV: ABŞ Konqresinə qanlı hücumdan sonra yüksəkvəzifəli şəxslərin istefası başlayıb

Amerika KİV-i Vaşinqtonda baş verən iğtişaşlarla bağlı hakimiyyətdəki istefaların ardıcıl olduğu haqqında məlumat verir.

“Associated Press” agentliyinin verdiyi xəbərə görə, Kapitolinin polis rəisi Stiven Sand istefa verib və yanvarın 16-da vəzifəsindən gedəcək. ABŞ-ın təhsil naziri Betsi DeVos da istefa verib. Bir müddət əvvəl Nəqliyyat Nazirliyinin rəhbəri Eleyn Çao istefa vermişdi. Bundan başqa, Ağ Evin nəzdində Milli Təhlükəsizlik Şurasının (MTŞ) daha dörd yüksək rütbəli əməkdaşı postlarını tərk ediblər. Bu barədə “Röyter”agentliyi ABŞ administrasiyasındakı mənbəyə istinadən xəbər verir. Dəqiqləşdirilmiş məlumata əsasən, Afrika işləri üzrə baş direktor Erin Uolş, Müdafiə sahəsində siyasət üzrə baş direktor Mark Vandroff, Kütləvi qırğın silahı məsələləri üzrə baş direktor Entoni Ruqyerro və Yaxın Şərq və Afrika işləri üzrə baş direktor Rob Qrinuey də istefa veriblər. Xatırladaq ki, yanvarın 6-da ABŞ-ın hazırkı Prezidentinin tərəfdarları Kapitoliyə soxulmuşdular. Etirazlar zamanı Vaşinqtonda 50-dən çox insan saxlanılıb. Paytaxtda fövqəladə vəziyyət rejimi 15 gün uzadılıb. Yanvarın 7-də ABŞ Konqresi hər iki palatanın birgə iclasında prezident seçkilərində Cozef Baydenin qələbəsini təsdiqləyib. Vaşinqtonda ümumilikdə beş nəfər iğtişaşların qurbanı olub. Həlak olanlardan biri qadın, digəri polis əməkdaşıdır.

Bu arada ABŞ Prezidenti Donald Tramp Kapitolidə iğtişaşlar zamanı baş vermiş zorakılığı pisləyib. “Bütün amerikalılar kimi, zorakılıqdan, qanunsuzluqdan və dəhşətdən qəzəbləndim”, - deyə Tramp qeyd edib. O əlavə edib ki, Vaşinqtonda iğtişaşların iştirakçıları qanun pozuntusuna görə cavab verəcəklər.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi tərəfindən COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 29 dekabr 2020-ci il tarixli qərarına əsasən, **"Referans Klinik Laboratoriya Mərkəzi" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzi tərəfindən COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 29 dekabr 2020-ci il tarixli qərarına əsasən, **"Referans Klinik Laboratoriya Mərkəzi" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Əyriçay Su Anbarı İstismarı İdarəsi 2021-ci ildə tələb olunan cari təmir işləri üçün tikinti materiallarının, maşın və mexanizmlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçirilir.

LOT-1. Cari təmir işləri üçün mal-material və mexaniki avadanlıqların, ehtiyat hissələrinin satın alınması.

LOT-2. Cari təmir işləri üçün tikinti materiallarının satın alınması.

LOT-3. Maşın və mexanizmlərin ehtiyat hissələrinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə imkanları. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Şəkinin Cumakənd kəndində (əlaqələndirici şəxs - Umarova Gülmayə Osman qızından (telefon, 02424-5-12-25) ala bilərlər.

**İştirak haqqı:**
**LOT-1 - 74.00 manat**
**LOT-2 - 107.00 manat**
**LOT-3 - 41.00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat - Şəki Əyriçay Su Anbarı İstismarı İdarəsi**
**H/h: AZ29CTRE00000000000002350103**
**VÖEN: 3000189591**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ 01350100000000003944**
**S.W.İ.F.T.BİK: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər;*

Bu sənədlərə aşağıdakılar daxildir:

*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*- Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **29.01.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **05.02.2021-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **10.02.2021-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi tərəfindən inzibati binada yanğınsöndürmə balonlarının satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 30 dekabr 2020-ci il tarixli qərarına əsasən, **"Onur Yanğın" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 1 saylı Bakı DOST Mərkəzi tərəfindən COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 28 dekabr 2020-ci il tarixli qərarına əsasən, **"Referans Klinik Laboratoriya Mərkəzi" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Polad buraz və zəncirlərin satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 13 yanvar 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təkliflərinin Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 13 noyabr 2020-ci il tarixli buraxılışında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına xüsusi geyimlərin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların tender təklifləri formal tələblərə və tələb olunan mallar müəyyən olunmuş texniki tələblərə uyğunsuzluğu halları aşkar olunduğu üçün tender proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

### *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 03 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Dəftərxana ləvazimatlarının satın alınması üzrə **"ANTARİS" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 25 dekabr 2020-ci ildə LOT üzrə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərsu" ASC Cəmiyyətin fəaliyyəti üzrə görülən işlərin videomateriallarının televiziya kanallarında yayımlanmasını təmin etmək üçün videokamera və avadanlıqların satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların İdarə Olunması Departamentinin satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini **14 yanvar 2021-ci il saat 15:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **15 yanvar 2021-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 10 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Çoxfunksiyalı qurğuların (printer/kopir/skaner) satın alınması üzrə **"XEROPC" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 07 yanvar 2021-ci ildə LOT üzrə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Daxili işlər naziri Vilayət Eyvazov və nazirliyin kollegiya üzvləri Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova atası

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərkontrakt" Səhmdar Cəmiyyətinin kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova atası

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova atası

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Fərid Səfərova atası

**AĞƏLİ SƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4948
Sifariş 34
Qiyməti 40 qəpik